HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№21 (611) ■ 6 iyun 2012 www.vergiler.az Qiymәti: 40 qәp.

# Bakıda Beynəlxalq sərgi və konfrans işə başlayıb

İyunun 5-də Bakı Sərgi Mərkəzində XIX Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransı işə başlamışdır. Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir.

Sərgidə dünyanın 35 ölkəsindən 304 şirkət təmsil olunur. Ekspozisiyanın 40 faizindən çoxu dünyada tanınmış iqtisadi qurumların payına düşür. Onların əksəriyyəti bu sərginin daimi iştirakçılarıdır. Almaniya, Böyük Britaniya, Çin, Rusiya və Türkiyənin milli qrupları üçün pavilyonlar əvvəlcədən sifariş olunmuşdur. Sərgidə iştirak etmək arzusunda olan MDB, Avropa və Şərqi Asiya ölkələrində fəaliyyət göstərən şirkətlərin sayı xeyli artmışdır. İlk dəfə olaraq, bu il sərgidə Vyetnam milli neft şirkəti də iştirak edir.

Ekspozisiya sahəsinin 59 faizi xarici şirkətlər üçün ayrılmışdır. Qalan ekspozisiya sahəsi isə yerli istehsalçılar və xarici şirkətlərin yerli nümayəndəlikləri üçün nəzərdə tutulmuşdur. Sərgiyə olan daimi marağı sübut edən əsas fakt ondan ibarətdir ki, ekspozisiyanın 10 faizini əvvəllər Azərbaycan bazarında fəaliyyət göstərməmiş yeni şirkətlərin stendləri təşkil edir. Bütövlükdə, bütün sərgi ekspozisiyasının ümumi artımı 15 faizdir. Sərgi sahəsinin və iştirakçı şirkətlərin sayının artması Azərbaycanın neft və qaz sahəsinin sürətlə inkişaf etdiyini və dünya miqyasında böyük nüfuz qazandığını deməyə əsas verir. Sərgi və konfransı açan Böyük Britaniyanın İTE Group Plc şirkətinin baş məsləhətçisi Endryu Vud dövlətimizin başçısını salamlamışdır. Prezident İlham Əliyev sərgi və konfransın açılış mərasimində nitq söyləmişdir.




ABŞ-ın Azərbaycandakı müvəqqəti işlər vəkili Adam Sterlinq Prezident Barak Obamanın, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Piter Beytman isə Baş nazir Deyvid Kemeronun dövlətimizin başçısına təbrik məktublarını oxumuşlar.

Açılış mərasimindən sonra sərginin pavilyonları ilə tanış olan Prezident İlham Əliyev fəxri qonaqlar kitabını imzalamış, sərgi və konfransın işinə uğurlar arzulamışdır.

# Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir. Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuş, akademik Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikasının istifadəyə verilməsi mərasimində iştirak etmişdir.***

Son illərdə müasir tələblər səviyyəsində yaradılan tibb ocaqlarından olan akademik Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikasında yüksək keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün hər cür şərait yaradılmışdır. Prezident İlham Əliyevin diqqətinə çatdırılmışdır ki, binanın beşinci və altıncı mərtəbələrində yeni yaradılmış stomatoloji mərkəz fəaliyyət göstərir. Poliklinikada iki terapiya, cərrahiyyə, rentgen, laboratoriya, ümumilikdə beş şöbə fəaliyyət göstərir. Burada oftalmoloq, nevroloji, ginekoloji, fizioterapiya, stomatoloji, kardioloji, revmatoloji, ultrasəslə müayinə, lor, travmatoloji, yoluxucu xəstəliklər, profilaktik müayinə və herontoloji kabinetlər vardır. Tibb ocağında Naxçıvan şəhərinin 66,2 min sakininə xidmət göstərən 12 sahə terapevti fəaliyyət göstərir. Poliklinikada 37 həkim, 56 orta tibb işçisi və 31 kiçik tibb işçisi vətəndaşların xidmətindədir.

Sonra Azərbaycan Respublikasının Prezidenti Naxçıvan Şəhər Gömrük İdarəsinin inzibati binasının açılışında iştirak etmişdir. Məlumat verilmişdir ki, üçmərtəbəli bina gömrük orqanlarının tanınma nişanında əksini tapan açar formasında inşa olunmuşdur. Burada xidməti otaqlar, server və tədris otaqları, arxiv vardır. Müşahidə otağında quraşdırılan 22 nəzarət kamerası ilə eyni vaxtda müşahidə aparmaq mümkündür. Binadakı iclas, konfrans və akt zalları da müasir tələblər səviyyəsində yaradılmışdır. İnzibati binada gömrük sahəsində hüquqpozmalara qarşı mübarizə, texniki nəzarət vasitələri, həmçinin statistika və informasiya texnologiyaları bölmələri yerləşir. Bildirilmişdir ki, burada avtonəqliyyat vasitələrinin rəsmiləşdirilməsi «bir pəncərə» prinsipi ilə həyata keçiriləcəkdir. Bölmədə gömrük işçiləri, brokerlər, dövlət yol polisinin və notariat xidmətinin əməkdaşları fəaliyyət göstərir. Bundan başqa, burada bank filialı vardır və POS-terminal quraşdırılmışdır. Bölmədə yaradılan şərait vətəndaşa cəmi 20 dəqiqə ərzində avtomobilinin rəsmiləşdirilməsini tam yerinə yetirməyə imkan verir.

Prezident İlham Əliyev Muxtar Respublikaya səfəri çərçivəsində Naxçıvan sement zavodunun açılışında iştirak etmişdir. Qeyd olunmuşdur ki, Kəngərli rayonunda 150,6 hektar ərazidə yeni tikilmiş sement zavodu Muxtar Respublikada investisiya qoyuluşuna görə ən böyük layihələrdən biridir. Müəssisədə istehsal sahələri, xammal və hazır məhsulun saxlanması üçün anbarlar, inzibati və iaşə binaları istifadəyə verilmişdir. «Naxçıvan Sement» MMC-nin məhsulları MR-də inşaat sektorunun tələbatını tam ödəməklə yanaşı, xarici bazarlara da ixrac olunacaqdır. Bildirilmişdir ki, insan amili və keyfiyyətin başlıca meyar kimi götürüldüyü müəssisədə texniki təhlükəsizlik, əməyin mühafizəsi və yanğından mühafizə qaydalarına xüsusi diqqət yetirilir.

Prezident İlham Əliyev sonra Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin inzibati binasının açılış mərasimində də iştirak etmişdir. Bildirilmişdir ki, səkkiz mərtəbəli binanın ümumi sahəsi 7592,2 kvadratmetrdir. Burada 103-ü xidməti, 56-sı isə yardımçı olmaqla 159 otaq vardır. Binada yaradılan Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin «112» qaynar telefon xidməti fövqəladə hallar zamanı vaxtında məlumatın alınmasını təmin edir.

Sonra Kəngərli rayonuna gələn Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, Naxçıvanda və Kəngərlidə sürətli inkişafdan məmnunluğunu ifadə etmişdir. Dövlət başçısı qeyd etmişdir ki, Kəngərli rayonunda bundan sonra da davamlı işlər görüləcəkdir. Dövlət başçısı Kəngərliyə səfəri çərçivəsində rayondakı Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsində qərargah binasının açılışında iştirak etmiş, hərbi hissənin zabit heyəti üçün iş otaqları və istirahət guşəsi, təlim sinifləri, əsgər yataqxanası ilə tanış olmuşdur.

Prezident İlham Əliyev Muxtar Respublikaya səfəri çərçivəsində Naxçıvan-Culfa magistral avtomobil yolunun və Culfa şəhərində Uşaq Musiqi Məktəbinin açılış mərasimlərində də iştirak etmişdir. Dövlət başçısı, həmçinin, Culfada sərhəd komendantlığının və sərhəd zastavasının açılışında da olmuşdur.

rəsmi xronika

## Azərbaycanın yaxşı inkişaf perspektivləri var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Andorra Knyazlığının xarici işlər naziri Gilbert Saboya Sunyeni qəbul etmişdir. Gilbert Saboya Andorra hökuməti adından Azərbaycana ilk rəsmi səfərə gəlməsindən şərəf hissi keçirdiyini bildirmişdir. O, Azərbaycanı yaxından tanımaq və Andorranın ölkəmizdə tanınması baxımından bu səfərin yaxşı imkan yaratdığını qeyd etmişdir. Xalqlarımızın qədim tarixə malik olduğunu vurğulayan qonaq Azərbaycanın yaxşı inkişaf perspektivlərinin olduğunu demişdir.

Prezident İlham Əliyev ölkələrimizin bir-birini yaxından tanıması üçün bu cür səfərlərin bundan sonra da davam etdirilməsinin əhəmiyyətini vurğulamışdır. Dövlətimizin başçısı səfər zamanı ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin yaradılması ilə bağlı imkanların müzakirə ediləcəyinə ümidvar olduğunu bildirmişdir.

## İkitərəfli münasibətlər uğurla inkişaf edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də Ukraynanın xarici işlər naziri Konstantin Qrişenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir. Nazir Konstantin Qrişenko Ukrayna Prezidenti Viktor Yanukoviçin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırmışdır.

Görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilmiş, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının önəmi qeyd olunmuş, əlaqələrimizin daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## Münasibətlərin inkişaf perspektivləri müzakirə edilmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 4-də İslam Əməkdaşlıq Təşkilatının baş katibi Ekmələddin İhsanoğlunu qəbul etmişdir.

Baş katib Ekmələddin İhsanoğlu ölkəmizdə «Eurovision-2012» mahnı müsabiqəsinin yüksək səviyyədə təşkili və keçirilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etmişdir. İslam Əməkdaşlıq Təşkilatının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə daim dəstək verdiyini vurğulayan Ekmələddin İhsanoğlu bu dəstəyin bundan sonra da davam etdiriləcəyini demişdir.

Görüşdə Azərbaycan ilə İslam Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə edilmiş, bu əlaqələrin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

## Ölkələrimiz arasında əlaqələr dərin tarixi köklərə malikdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də Rusiya Federasiyasının MDB işləri üzrə xüsusi nümayəndəsi, MDB işləri, xaricdə yaşayan həmvətənlər və beynəlxalq humanitar əməkdaşlıq üzrə Federal Agentliyin rəhbəri Konstantin Kosaçovu qəbul etmişdir.

Konstantin Kosaçov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Baş nazir Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırmış, Respublika Günü münasibətilə Prezident İlham Əliyevi təbrik etmişdir. O, bu yaxınlarda Moskvada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş mərasimdə iştirakını məmnunluqla xatırlamışdır. Ölkələrimiz arasında əlaqələrin müxtəlif istiqamətlərdə, xüsusilə də iqtisadi və humanitar sahələrdə uğurla inkişaf etdiyini vurğulayan Konstantin Kosaçov humanitar sahədə əməkdaşlığın daha da genişləndirilməsində Bakı Beynəlxalq Humanitar Forumunun önəmini qeyd etmişdir.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulamışdır. Ölkələrimiz arasında əlaqələrin dərin tarixi köklərə malik olduğunu qeyd edən Prezident İlham Əliyev bildirmişdir ki, iqtisadi və humanitar sahələrdə əməkdaşlığımızın yüksək səviyyədə olması əlaqələrimizin digər sahələrdə genişləndirilməsi işinə də öz töhfəsini verir.

Dövlətimizin başçısı Prezident Vladimir Putinin və Baş nazir Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirmiş, onun da salamlarını Rusiya Federasiyasının Prezidentinə və Baş nazirə çatdırmağı xahiş etmişdir.

2 Külli miqdarda vergidən yayınma faktları aşkar olunub

3 Dövlət qeydiyyatının onlayn rejimdə həyata keçirilməsi razılıqla qarşılanır

4 E-xidmətlərin spektri genişlənir

5 Uşaqlar arasında rəsm müsabiqəsi

# Avrasiya maliyyə ekspertlərinin 8-ci seminarı

**Mayın 28-dən 30-dək Ümumdünya Gömrük Təşkilatının Brüsseldə yerləşən baş qərargahında Beynəlxalq Vergi və İnvestisiya Mərkəzinin (ITIC) Avropa İttifaqının Vergi və Gömrük Baş Direktorluğu, Avropa Parlamenti İqtisadi və Maliyyə Məsələləri Komitəsi, Avropadaxili Vergi Administrasiyaları Təşkilatı və Ümumdünya Gömrük Təşkilatı ilə birgə təşkil etdiyi Avrasiya Maliyyə Ekspertlərinin 8-ci İllik seminarı keçirilmişdir. Seminarda Azərbaycan, Rusiya, Ukrayna, Qazaxıstan, Gürcüstan, Monqolustan və Ermənistanın nümayəndə heyətləri, Avrasiya İqtisadi Birliyinin Komissiyasının nümayəndələri, eləcə də bir sıra şirkətlərin nümayəndələri və müstəqil maliyyə ekspertləri iştirak etmişlər.**

Tədbirdə Azərbaycanı vergilər nazirinin müavini, üçüncü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərovun başçılıq etdiyi nümayəndə heyəti təmsil etmişdir. Seminarın gedişində vergilərə qlobal baxış, beynəlxalq inteqrasiya şəraitində enerji sektorunun vergiyə cəlb olunması, ölkələrin vergi siyasətləri və digər mövzularda təqdimatlar edilmiş, mövzular ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Mərasimdə çıxış edən ITIC-nin prezidenti Daniel Vitt Avrasiya Maliyyə Ekspertlərinin 2011-ci ilin 1-3 iyun tarixlərində Bakı şəhərində keçirilmiş 7-ci illik seminarının əhəmiyyətindən danışmış, təşkilatın gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində həmin tədbirin mühüm rol oynadığını bildirərək, Azərbaycan nümayəndə heyətini Respublika Günü münasibətilə təbrik etmişdir.

Azərbaycan Respublikası vergilər nazirinin müavini Sahib Ələkbərov tədbirdə çıxış edərək iştirakçılara ötən əsrin əvvəllərində Şərqdə ilk respublikanın - Azərbaycan Demokratik Respublikasının yaranması və fəaliyyət göstərdiyi 23 ay ərzində ölkədə həyata keçirilmiş demokratik islahatlar, onun varisi olan Azərbaycan Respublikasında dövlət müstəqilliyinin bərpasından ötən 20 il ərzində əldə olunmuş nailiyyətlər barədə ətraflı məlumat vermişdir.

Seminarın «Vergilərə qlobal baxış» adlanan sessiyası ITIC-nin baş iqtisadi məsləhətçisi, Maastrixt Universitetinin professoru Siybren Knossen və Sahib Ələkbərovun həmsədrliyi ilə keçirilmişdir. Müzakirələr zamanı MDB dövlətlərində vergi siyasəti və inzibatçılığının təkmilləşdirilməsi sahəsində atılan addımlar, əldə olunmuş nailiyyətlər qeyd edilmişdir. Sessiyada Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq müqavilələr şöbəsinin rəisi Ülvi Yusifov «Azərbaycanda dövlət vergi siyasəti: məqsədlər və onlara çatmağın yolları» mövzusunda tədbir iştirakçılarında böyük maraq doğuran geniş təqdimatla çıxış etmişdir. Nümayəndə heyətinin üzvləri ölkəmizin vergi sistemində tətbiq olunan elektron xidmətlər və ƏDV-nin depozit hesabı ilə bağlı çoxsaylı sualları cavablandırılmışdır.

# Külli miqdarda vergidən yayınma faktları aşkar olunub

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən 2012-ci ilin may ayında 25 cinayət işi başlanmışdır ki, onlardan da 7-si külli miqdarda vergiləri dövlət büdcəsinə ödəməkdən yayındırmış sahibkarlar barəsində olmuşdur. Araşdırmalar zamanı müəyyən edilmişdir ki, vergi orqanlarına təqdim edilən hesabatlara bilərəkdən təhrif olunmuş məlumatlar daxil etməklə 3 saylı Ərazi Vergilər İdarəsində qeydiyyatda olan, Qasımov Əhliman Qasım oğlunun direktoru olduğu «Elmar» və «Cəlil» məhdud məsuliyyətli cəmiyyətləri birlikdə 103 min manat məbləğində vəsaiti dövlət büdcəsinə ödəməkdən yayındırmışlar.

Departamentin İstintaq idarəsində və Təhqiqat şöbəsində aparılan araşdırma zamanı sahibkar Ağayev Akif Əvəz oğlunun eyni zamanda bir neçə müəssisəyə rəhbərlik edərək vergi orqanına təqdim olunmuş bəyannamələrə gəlir və xərclər barədə qəsdən təhrif olunmuş məlumatlar daxil etdiyi, direktoru olduğu, 8 saylı ƏVİ-də qeydiyyatda olan «Araz-İnşaat» MMC 364 min 238,6 manat, 3 saylı ƏVİ-də qeydiyyatda olan «Qlobal-S» MMC isə 74 min 796,8 manat məbləğində vəsaiti büdcədən yayındırdığı aşkar edilmişdir.

Departament tərəfindən aparılmış digər araşdırmalarla 2 saylı Ərazi Vergilər İdarəsində vergi ödəyiciləri kimi qeydiyyatda olan «Olimp» MTK-da 231 min 578,5 manat məbləğində mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergisinin və muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin, «Aznavi» MMC-də isə 118 min 979,7 manat məbləğində əlavə dəyər vergisinin dövlət büdcəsindən yayındırıldığı müəyyən olunmuşdur.

Bundan əlavə, «Saf Təchizatçı» MMC və «Təmir Tikinti Servis-S» MMC-də də külli miqdarda vergilərin dövlət büdcəsinə ödənilməkdən yayındırılması halları aşkarlanmışdır.

Vergidən yayınma faktları toplanmış materiallarla təsdiq edildiyi üçün onlardan hər biri üzrə Departamentdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi (külli miqdarda vergilərin dövlət büdcəsindən yayındırılması) ilə müvafiq cinayət işi başlanmışdır.

# Taksofonlardan internetə daxil ola bilərsiniz

***Artıq elektron taksofonlarda nağdsız ödəniş də mümkündür...***

Paytaxtda yeni elektron taksofonların quraşdırılması prosesi davam edir. Bu taksofonlardan, danışıq vasitəsilə yanaşı, digər xidmətlər üçün də istifadə etmək mümkündür. Bakı Telefon Rabitəsi İstehsalat Birliyindən əldə etdiyimiz məlumata görə, hazırda Bakı şəhəri ərazisində 60 yeni taksofon quraşdırılıb. Birliyin baş direktor müavini Xankişi Kişiyev «Vergilər»ə müsahibəsində bildirmişdir ki, yeni taksofonlar istifadəçilər üçün həm danışıq, həm də digər xidmətləri həyata keçirmək baxımından çox sərfəlidir. Belə ki, iyun ayının 1-dən başlayaraq taksofonlardan mobil telefonlara edilən zənglərin qiyməti endiriləcək, bir dəqiqəsi 10 qəpik müəyyənləşib.

Hazırda köhnə taksofonların istismardan çıxarıldığını deyən X. Kişiyev yeni taksofonlar vasitəsilə internetə, eləcə də «Skype»a qoşulmaq mümkün olduğunu bildirmişdir. Bundan başqa, taksofonlardan «Bluetooth» vasitəsilə mobil telefona foto və musiqi yükləmək də mümkündür. Veb-taksofonlarda onlayn oyun və informasiya bölmələri də var. Menyu isə Azərbaycan və ingilis dillərindədir. Bu aparatlar vasitəsilə internetə qoşulmanın 1 dəqiqəsi 2, «Bluetooth»dan bir dəfə istifadə isə 20 qəpikdir. Şəhərdaxili zənglərin 1 dəqiqəsi 3, ölkədaxili danışıqların 1 dəqiqəsi isə 7 qəpikdir. Türkiyə, İran və Pakistana zənglərin 1 dəqiqəsi 45, MDB və Baltikyanı ölkələrə 36, Avropa ölkələri və Amerikaya isə 54 qəpik təşkil edir.

X.Kişiyevin sözlərinə görə, yeni taksofonlarda internetdən istifadə etməklə kommunal xidmətləri də ödəmək mümkündür. Taksofonun haqqının ödənilməsinə gəlincə isə müsahibimiz bildirib ki, bunu qəpik pullar və ya kart vasitəsilə ödəmək daha sərfəlidir. Kağız pulla ödəmə zamanı isə müəyyən problemlər ortaya çıxa bilər. Belə ki, ödəniş kağız pulla həyata keçirilərkən qalıq geri qaytarılmır. Bu baxımdan, insanlar ya kart vasitəsilə, yaxud da qəpik pullardan istifadə etməklə ödəmə həyata keçirə bilərlər.

Müasir dövrdə mobil telefonu olmayan adamın az tapıldığı bir vaxtda taksofonların mövcudluğunun nə dərəcədə aktual olduğuna gəlincə, müsahibimiz bildirdi ki, taksofonlar universal bir xidmətdir və bu xidmətdən hər bir ölkədə istifadə edilir. Taksofonlardan istifadənin daha sərfəli olduğunu deyən X.Kişiyevin sözlərinə görə, şəhər telefonlarından mobil telefona zəng etmək daha baha başa gəlir: dəqiqəsi 29 qəpik. Həmçinin, bu xidmətdən istifadə etməklə elektron poçta baxmaq, skypla danışmaq, yükləmələr həyata keçirmək də mümkündür. O baxımdan da taksofonlardan istifadə vətəndaşlar üçün çox əhəmiyyətli olacaq.

Baş direktor müavininin sözlərinə görə, taksofonların üzərində istifadə qaydaları, ölkələrin və rayonların kodları, digər köməkçi məlumatlar və s. mövcuddur.

**AYTƏN**

# Vergi ödəyicilərinin kommersiya (vergi) sirri

*Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatların məxfiliyi gücləndiriləcək*

***Milli Məclisdə «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanuna əlavə və dəyişikliklərlə bağlı qanun layihəsi hazırlanmışdır. Qanun layihəsində qeyd olunur ki, kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar aşağıdakı hallarda sorğu əsasında açıqlana bilər.***

Həmin məlumatlar qanunla müəyyən edilmiş hallarda və qaydada məhkəmə, istintaq və təhqiqat orqanlarına, qanunun müəyyən etdiyi hallarda əməliyyat-axtarış fəaliyyətinin subyektlərinə, «Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Qanunla müəyyən olunmuş hallarda və qaydada maliyyə monitorinqi orqanlarına verilə bilər. Bununla yanaşı, icra orqanlarına, vəkillərə, kommersiya hüquqi şəxsin digər təsisçilərinə və iştirakçılarına, barəsində dövlət reyestrindən məlumatların verilməsi tələb olunan şəxsin razılığı ilə üçüncü şəxslərə də məlumatların açıqlanmasına icazə veriləcək.

Onu da qeyd edək ki, kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla, hər bir şəxs dövlət reyestrindəki yazılarla tanış olmaq, dövlət reyestrindən çıxarışı və qeydiyyat üçün təqdim olunmuş sənədlərin surətlərini tələb etmək hüququna malikdir. Bununla bağlı «Kommersiya sirri haqqında» Qanuna da əlavə və dəyişiklər edilməsi nəzərdə tutulmuşdur.




Yeri gəlmişkən, Vergi Məcəlləsinin 30-cu maddəsində də kommersiya hüquqi şəxslərin vergi sirrinin qorunması məsələləri öz əksini tapmışdır. Məcəlləyə əsasən, bu məsələdə hər bir vergi işçisinin üzərinə ayrıca məsuliyyət düşür. Vergi qanunvericiliyinə görə, vergi orqanları və onların vəzifəli şəxsləri xidməti vəzifələrini yerinə yetirərkən vergi ödəyiciləri haqqında əldə etdikləri və ya onlara etibar edilən hər hansı məlumatın məxfiliyini qorumağa borcludurlar (vergi orqanlarında işlədikləri dövrdə və ya işdən çıxdıqdan sonra). Kommersiya (vergi) sirrinin açılmasına, əsasən, vergi yoxlaması zamanı vəzifələrini yerinə yetirən vergi orqanının vəzifəli şəxsinə, cəlb edilmiş mütəxəssisə və ya ekspertə vergi ödəyicisinin bəlli olmuş kommersiya (vergi) sirrinin istifadə edilməsi və ya başqa şəxsə verilməsi aiddir.

Vergi orqanına daxil olmuş və kommersiya (vergi) sirrini təşkil edən məlumatların qorunmasının və əldə edilməsinin xüsusi rejimi vardır. Kommersiya (vergi) sirrini təşkil edən məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən siyahı üzrə vəzifəli şəxslər əldə edə bilər.

Bundan başqa, dövlət orqanları və onların vəzifəli şəxsləri kommersiya (vergi) sirrini təşkil edən məlumatları əks etdirən sənədləri həmin sənədləri onlara təqdim etmiş vergi orqanlarına qaytarmağa borcludurlar. Vergi ödəyicisinə aid məlumat digər şəxsə vergi ödəyicisinin yazılı icazəsi ilə verilə bilər.

Kommersiya (vergi) sirrini təşkil edən məlumatların itirilməsi və yaxud belə məlumatların açılması qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

**Rəşad SADIQOV**

# Strateji idarəetmə: Bençmarkinq

*Vergilər Nazirliyi mütəmadi olaraq Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən «Strateji idarəetmə: Bençmarkinq» İşçi qrupunun təşkil etdiyi iclaslarda təmsil olunur. Ötən il İşçi qrup tərəfindən «Bençmarkinq üçün yaxşı təcrübə Təlimatı»nın sınaq layihəsi hazırlanmış və Azərbaycan Respublikasının Vergilər Nazirliyi də bu layihədə iştirak edir*

Bu gün marketinq sahəsində çox istifadə edilən bençmarkinq anlayışını qəzetimiz üçün şərh edən «Ata Holdinq» ASC-nin Müşahidə Şurası sədrinin müşaviri Rəşad Rəsullu bençmarkinqə verilən təriflərin və anlayışların müxtəlif olduğunu bildirir: «Ümumi şəkildə desək, bençmarkinq bir prosesdir. Bu proses zamanı sizin təşkilata oxşar və ya uyğun olan digər təşkilatların fəaliyyətlərində səmərəli nümunələr müəyyən edilir. Bu nümunələr fərqli xarakter kəsb edə bilər. Yəni bu hər hansı yeni məhsul, həmin məhsulun bazara çıxarılması üsulu və ya ümumiyyətlə, idarəetmə prosesinin hər hansı bir hələqəsi ola bilər. Burada əsas olan odur ki, baxılan hal sektorda olan digər qurumlar üçün nümunə təşkil etsin. Nümunə müəyyən edildikdən sonra prosesin sonrakı mərhələsində həmin nümunə başa düşülməyə çalışılır. «Bu yeni məhsulu necə əldə ediblər?», «Nəyə görə onlar bu məhsulun bir vahidinin istehsalına bizdən 30% az xərc çəkirlər?» tipli sualların cavabları axtarılır. Cavablar tapıldıqdan sonra isə növbəti və son mərhələ - tapılan cavablar əsasında hazırlanan həllərin şirkətin, təşkilatın iş prosesində tətbiqinə başlanılır».

Bençmarkinq yalnız şirkətlər üçün deyil, müxtəlif dövlət qurumları, nazirliklər, qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlar tərəfindən də istifadə edilə bilinəcək bir metoddur və istifadə edilir. Bu baxımdan, bençmarkinqi yalnız korporativ sektorla məhdudlaşdırmaq düzgün olmazdı.

Təşkilat üçün bençmarkinq yalnız bir məqsədlə tətbiq olunur: təkmilləşmək üçün. Bütün şirkətlər, təşkilatlar öz işlərini, məhsullarını, xidmətlərini təkmilləşdirmək üçün bunu tətbiq etmək məcburiyyətindədir. Təşkilatlar özlərində bençmarkinq prosesini tətbiq etməyə başlayanda onların daxili münasibətlərində də xeyli dəyişikliklər baş verir. Bençmarkinqin tətbiqi üçün məqsədlər müxtəlif ola bilər. Əsas və son məqsəd isə təşkilatın işinin təkmilləşdirilməsidir. Bununla yanaşı, altməqsədlər də fərqlənə bilər. Məsələn, bu metodu ilk olaraq tətbiq edənlərdən biri olan «Xerox» şirkəti 1979-cu ildə «Rəqabətqabiliyyətliliyin bençmarkinqi» adlı bir layihə həyata keçirmişdi. Layihədə şirkətin xərcləri və əmtəələrinin keyfiyyəti müvafiq yapon şirkətlərinin göstəriciləri ilə müqayisə edilirdi. Bençmarkinqin məqsədi bu idi ki, aparılan tədqiqatlar əsasında dəyişikliklərə olan ehtiyac və bu dəyişikliklərin tətbiqi nəticəsində əldə olunacaq müsbət nəticə müəyyən edilsin. Layihə kifayət qədər uğurlu oldu. Belə ki, bu layihənin sonunda əldə edilən nəticələrin və onlar əsasında hazırlanan təkliflərin «Xerox» şirkətində tətbiqi nəticəsində şirkətin xərcləri orta hesabla 20-25% azaldı, məhsulun keyfiyyəti isə hiss ediləcək dərəcədə yüksəldi. Bu baxımdan, bençmarkinqin tətbiq ediləcək növləri məqsədlərə görə fərqlənir.

Biznes münasibətləri inkişaf etdikcə bençmarkinqə maraq da artır. Bençmarkinq əvvəllər universitetlərdə marketinq fənninin bir hissəsi kimi tədris edilirdisə, artıq müstəqil fənn kimi tədris olunur. Artıq bençmarkinq üzrə ixtisaslaşan mütəxəssislər formalaşmaqdadır.

Bençmarkinqin növləri çoxdur: daxili və xarici benşmarkinq, rəqabətqabiliyyətliliyin bençmarkinqi, funksional bençmarkinq, proses bençmarkinqi, xərclərin bençmarkinqi, müştərinin bençmarkinqi və s. Azərbaycanda daha çox funksional bençmarkinqdən istifadə edilir ki, bu da son zamanlar ölkədə ISO idarəetmə standartlarının tətbiqinin geniş yayılması ilə bağlıdır. Təşkilatların bütün bençmarkinq növlərini tətbiq etmələri məqsədəuyğundur, sadəcə, bunlar gərək həmin müəssisənin inkişaf strategiyasında uyğun olsun: inkişaf strategiyasında qoyulan hədəfləri əldə etmək üçün bençmarkinqin müvafiq növünə müraciət edilməlidir.

Rəşad Rəsullunun sözlərinə görə, Azərbaycanda bençmarkinqdən istifadə olunsa da, bu sahənin tətbiq edilmə səviyyəsində və keyfiyyətində ciddi fərqlər, çatışmazlıqlar var: «Əsas çətinlik bençmarkinqin fəlsəfəsinin tam başa düşülməməsidir. Müşahidələr göstərir ki, təşkilatların çoxu hələ düzgün metodologiyadan istifadə etmirlər. Bu da ona gətirib çıxarır ki, proses xeyli vaxt aparır daha çox vəsait xərclənir, əldə edilən nəticə isə gözlənilən səviyyədə olmur. Bençmarkinq müxtəlif mərhələləri, fazaları olan bir prosesdir. Bir mərhələ düzgün həyata keçirilmədən digər mərhələ başlansa və ya mərhələlərin ardıcıllığı dəyişik salınsa, sözsüz ki, nəticə ürəkaçan olmayacaq. Lakin ildən-ilə bu sahədə vəziyyət müsbət istiqamətdə dəyişir. Xüsusilə xarici şirkətlərin gətirdiyi təcrübə əsasında yetişən yerli mütəxəssislərin əldə etdikləri biliklər bu sahənin inkişafı üçün əsas rol oynayır».

Qeyd edək ki, daxili bençmarkinq - bençmarkinqin istənilən prosesinin çıxış nöqtəsi kimi həmişə ilk növbədə nəzərdən keçirilir. Bu yanaşma çoxlu sayda iş yarımbölmələri və oxşar fəaliyyətlə məşğul olan, lakin nisbətən ayrı-ayrı işləyən yarımbölmələri olan təşkilatlarda daha səmərəlidir.

**Arzu İBRAHİMOVA**

# Dövlət qeydiyyatının onlayn rejimdə həyata keçirilməsi razılıqla qarşılanır

*Hüquqi və fiziki şəxslərin onlayn qeydiyyatının təşkili sahəsində görülən işlər haqqında ətraflı məlumat almaq üçün Bakı Şəhər Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsinin rəisi Nigar Alimovaya müraciət etdik*



***- Nigar xanım, dövlət qeydiyyatının elektronlaşdırılması ilə əlaqədar görülən işlərin başlıca istiqamətləri haqqında məlumat verməyinizi xahiş edirik. Bu sahədə hansı nəticələr əldə olunub?***

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 may 2011-ci il tarixli «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanına əsasən, Vergilər Nazirliyi tərəfindən əhaliyə göstərilən elektron xidmətlərin genişləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Fərmanda nəzərdə tutulmuş tapşırıqların icrası ilə əlaqədar kommersiya hüquqi şəxslərin elektron dövlət qeydiyyatının həyata keçirilməsi üçün «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edilmişdir. Bu dəyişikliyə əsasən, yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin dövlət qeydiyyatı təkmil sertifikata malik gücləndirilmiş elektron imzadan istifadə etməklə, qeydiyyat orqanına elektron qaydada təqdim edilən ərizə və ona əlavə olunan sənədlər əsasında aparılacaqdır. Beləliklə, istənilən Azərbaycan vətəndaşı elektron imza almaqla qeydiyyat orqanına gəlmədən Vergilər Nazirliyinin internet saytına daxil olmaqla onlayn rejimdə kommersiya hüquqi şəxsin elektron dövlət qeydiyyatının həyata keçirilməsi üçün müraciət edə və real vaxt rejimində qeydiyyata alınaraq sənədlərini elektron şəkildə əldə edəcək.

Son 4 ildə qeydiyyata alınan kommersiya hüquqi şəxslərin 94,4%-nin təşkilati-hüquqi forması MMC olmuşdur. Qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, elektron qeydiyyatın iki forması - sürətli və adi elektron qaydası müəyyənləşdirilmişdir. Sürətli elektron qeydiyyat zamanı təkmil sertifikata malik gücləndirilmiş elektron imzaya malik olan istənilən Azərbaycan vətəndaşı heç bir sənəd əlavə etmədən, onlayn rejimdə Vergilər Nazirliyinin rəsmi internet səhifəsinə daxil olaraq, sadəcə, özü, təkbaşçı icra orqanının rəhbəri və fəaliyyət sahəsi barədə məlumatı doldurmaqla elektron qaydada hüquqi şəxsi qeydiyyatdan keçirə bilər. Bu zaman təsis qərarı və nizamnamə onlayn rejimdə sistem tərəfindən avtomatik hazırlanır. Adi elektron qeydiyyat zamanı müraciət edənlərə bütün imkanlar yaradılmışdır ki, o özü hüquqi şəxsin adını və idarəetmə formasını, nizamnamə kapitalının məbləğini müəyyən edərək, tərtib etdiyi nizamnamə və qərar formasını müraciət ərizəsinə əlavə etsin.

Dövlət qeydiyyatında «bir pəncərə» prinsipinin tətbiqindən (01.01.2008) ötən müddət ərzində (may ayının 31-dək) Bakı şəhəri üzrə 75765 fiziki, 13713 hüquqi şəxs qeydiyyatdan keçmişdir.

May ayının 31-nə olan məlumata görə onlayn rejimdə dövlət qeydiyyatına alınan vergi ödəyicilərinin sayı 8958-ə çatmışdır.

***- Elektron qeydiyyatın üstünlükləri barədə nə deyə bilərsiniz?***

- Həyata keçirilən ardıcıl islahatlar nəticəsində elektron qeydiyyatın sadəlik, məkansızlıq, rahatlıq, sərfəlilik, şəffaflıq kimi prinsipial üstünlükləri yaranmışdır. Sadə olan budur ki, vergi ödəyicisi yalnız bir dövlət orqanına onlayn müraciət etməklə qeydiyyat prosedurlarını həyata keçirə bilir. Həmçinin hansı məkanda olmasından asılı olmayaraq, müxtəlif yerlərdə olan şəxslərin bir araya gəlmədən istənilən şəxslə istədikləri vaxtda hüquqi şəxs yaratmaq imkanı yaranır. Hər hansı sənədin notarial təsdiqi və ya əlavə edilməsi zərurətinin aradan qaldırılması da vergi ödəyicilərinin rahatlığına xidmət edir.

Qeydiyyat prosesində dövlət rüsumunun ləğv edilməsi və nizamnamə kapitalının dərhal ödənilməsi zərurətinin aradan qaldırılması sərfəlilik prinsipini önə çıxarır. Bundan başqa, sürətli qeydiyyatın təşkili üçün təsisçi yalnız sistem tərəfindən ona təqdim edilən qərar və nizamnamə ilə tanış olub onları elektron qaydada imzalaya bilər. Sahibkarməmur ünsiyyətinin olmaması isə şəffaflığın təmin olunmasında önəmli rol oynayır.

***- Vergi ödəyiciləri onlayn qeydiyyat prosesini necə qarşılayırlar?***

- Sahibkarların birbaşa bildirdikləri və ya ünvanımıza göndərdikləri təşəkkür məktublarından da görmək olar ki, onlar baş verən yenilikləri böyük razılıqla qarşılayırlar. Çünki göstərilən xidmətlərin ən böyük üstünlükləri vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin sadələşdirilməsinə, səmərəliliyin artırılmasına xidmət etməklə yanaşı, göstərilən xidmətlərin optimal vaxtda internetə çıxışı olan istənilən yerdən həyata keçirilməsi, şəxslərin vergi orqanlarına gəlmək asılılığının minimuma endirilməsi, vergi ödəyiciləri ilə fiziki əlaqə formasının məhdudlaşdırılması, eyni zamanda həm vergi ödəyicilərində, həm də vergi orqanlarında vaxt və maddi resurs sərfiyyatının azaldılmasına imkan verir.

***- Qeydiyyat prosesi zamanı sahibkarlara hansı metodiki köməkliklər göstərilir?***

- Kommersiya hüquqi şəxslərin elektron qeydiyyatı üçün lazım olan bütün metodiki vəsaitlər Vergilər Nazirliyinin rəsmi internet saytında yerləşdirilmişdir. Bu barədə vergi ödəyicilərinə mütəmadi olaraq məlumatlar verilir. Həmçinin dövlət qeydiyyatı zamanı müraciət edən şəxslərin əlavə sualları yarandıqda, birbaşa bizim əməkdaşlarla əlaqə saxlaya bilirlər. Vergi ödəyicilərini maraqlandıran bütün məsələlər operativ qaydada aydınlaşdırılır və onlara ətraflı cavablar verilir.

***- Gələcəkdə qeydiyyat prosesində daha hansı yeniliklərin həyata keçirilməsi planlaşdırılır?***

- Hazırda kommersiya hüquqi şəxslərin ləğvetmə prosedurunun sadələşdirilməsi istiqamətində işlər aparılır. Bu sahədə Beynəlxalq Maliyyə Korporasiyasının tövsiyələri nəzərə alınmaqla, qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün Vergilər Nazirliyi tərəfindən təkliflər layihəsi hazırlanmışdır. Layihədə ləğvetmə prosesinin başa çatması müddətinin dəqiqləşdirilməsi, kommersiya qurumlarının qeydiyyatdan çıxması üçün tələb olunan sənədlərin tam və dəqiq siyahısının müəyyən edilməsi, həmçinin kommersiya qurumlarının iştirakçılarının və kreditorların qanuni maraqlarının qorunması ilə bağlı məsələlər öz əksini tapmışdır.

**Rəşad SADIQOV**

## Orta və kiçik müəssisələrin auditi

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən may ayının 21-dən 25-dək Türkiyənin Ankara şəhərində «Orta və kiçik müəssisələrin auditi» mövzusunda seminar keçirilmişdir. Tədbirdə 15 ölkədən nümayəndələr iştirak etmişdir. Tədbirin əsas məqsədi orta və kiçik müəssisələrin auditi mövzusunda beynəlxalq təcrübənin və bu sahənin inkişaf istiqamətlərinin öyrənilməsi, müxtəlif ölkələrdən gəlmiş vergi nümayəndələri arasında müzakirələrin təşkil edilməsi, orta və kiçik müəssisələrin auditi mövzusunda vergi inzibatçılığının təkmilləşdirilməsi üçün yeni ideyaların müəyyən edilməsi və s. olmuşdur. Tədbirdə Vergilər Nazirliyinin Vergi auditi Baş İdarəsinin və 12 saylı Ərazi Vergilər İdarəsinin əməkdaşları Arzu Babayev və Namiq Şükürov iştirak etmişlər.

# Fəaliyyətin qiymətləndirilməsi

Vergilər Nazirliyində 2003-cü ildə yaradılmış fəaliyyətin qiymətləndirilməsi sisteminin tətbiqinə əvvəlcə strukturların fəaliyyətinin qiymətləndirilməsi ilə başlanılmışdır, 2005-ci ildən isə paralel olaraq əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi də həyata keçirilir. Bu sistem müasir beynəlxalq standartlara uyğun menecment sisteminin vergi inzibatçılığına tətbiq edilməsi məqsədilə yaradılmışdır.

Fəaliyyətin qiymətləndirilməsi iki sahə üzrə - nazirliyin sturkturları və vergi əməkdaşları üzrə həyata keçirilir.

Nazirliyin struktur vahidlərinin və bölmələrinin fəaliyyətinin qiymətləndirilməsi həmin strukturların fəaliyyətləri üzrə planların hazırlanmasına və onların faktiki icrasına nəzarəti təmin edir.

Struktur vahidlərinin və bölmələrinin fəaliyyətinin qiymətləndirilməsi məqsədi ilə strukturlarda görülən işlər üzrə meyarlar aşağıdakı kimi müəyyən edilmişdir:

- ümumi proseslər üzrə işlərin meyarları;
- spesifik proseslər üzrə işlərin meyarları.

Ümumi proseslər üzrə işlərə nazirliyin bütün strukturlarında görülən işlər, spesifik meyarlara isə funksional sahələr üzrə görülən işlər daxildir.

Struktur vahidlərinin və bölmələrinin fəaliyyətinin qiymətləndirilməsi aylıq və rüblük həyata keçirilir. Struktur vahidlərini və bölmələri tərəfindən aylıq və rüblük iş planlarının icrası vəziyyəti və fəaliyyətinin qiymətləndirilməsi üzrə hesabat formaları, habelə planın icrasının aşağı balla (2 və 3) qiymətləndirildiyi hallarda, yaranmış kənarlaşmaların səbəblərini əks etdirən hesabat formaları tərtib edilərək, Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinə təqdim olunur. Baş idarə tərəfindən isə struktur vahidlərinin və bölmələrinin rüblük fəaliyyətinin qiymətləndirilməsinin nəticələri, yaranmış kənarlaşmaların obyektiv və subyektiv səbəbləri təhlil olunaraq, icmal hesabat hazırlanır və Qiymətləndirmə Şurasına təqdim edilir.

Vergi orqanlarının əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsi menecerlər və mütəxəssislər üzrə ayrılıqda aparılır. Mütəxəssislərin fəaliyyətinin qiymətləndirilməsi gündəlik, aylıq və yarımillik, menecerlərin fəaliyyətinin qiymətləndirilməsi isə illik həyata keçirilir.

Əməkdaşların fəaliyyətinin qiymətləndirilməsinin nəticələri barədə məlumatlar həvəsləndirmə, kadr ehtiyatlarının yaradılması, attestasiyaların keçirilməsi və əməkdaşlarla bağlı digər tədbirlər zamanı nəzərə alınır.

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 992 nömrəli sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramının (2005-2007-ci illər)» icrası ilə əlaqədar olaraq müasir menecment sisteminin vergi inzibatçılığına tətbiqi üzrə təkmilləşdirmələr aparılmaqla 2005-ci ilin noyabr ayından başlayaraq Vergilər Nazirliyində fəaliyyətin qiymətləndirilməsinin avtomatlaşdırılması həyata keçirilmişdir. Nəticədə Nazirliyin strukturlarının və əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə (AVİS) inteqrasiya olunmuş və vergi inzibatçılığının həyata keçirilməsi üçün vahid Menecment İnformasiya Sistemi yaradılmışdır. Fəaliyyətin qiymətləndirilməsinin avtomatlaşdırılması nazirliyin strukturlarının və əməkdaşlarının fəaliyyəti barədə vahid məlumat sistemi olmaqla vergi inzibatçılığında nəzarətin həyata keçirilməsində və qərarların qəbul edilməsində operativliyin yüksəlməsinə imkan verir.

Hazırda yaradılmış fəaliyyətin qiymətləndirilməsi sistemi dünya ölkələrinin vergi administrasiyaları tərəfindən tətbiq edilən ən qabaqcıl menecment informasiya sistemlərindən biridir.

**Arzu İBRAHİMOVA**



Akif Musayev
Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi

Rakurs

## Qeyri-diskriminasiya xarakterli vergi siyasəti

Qeyri-diskriminasiya xarakterli vergi siyasətinin həyata keçirilməsi bir tərəfdən makroiqtisadi stabilliyin təmin edilməsi məqsədi daşıyırsa, digər tərəfdən də mikroiqtisadi səviyyədə fəaliyyət göstərən müxtəlif sahibkarlıq subyektlərinin fəaliyyətinin aktivliyinin stimullaşdırılmasına şərait yaradır. Qeyri-diskriminasiya xarakterli vergi siyasəti makroiqtisadi səviyyədə vergi yükünün formalaşmasına, mikroiqtisadi səviyyədə isə müəssisələrin iqtisadi göstəricilərinə vergilərin təsir dərəcəsini ifadə edir. Vergi siyasətinin əsasında makroiqtisadi dəyişikliklərə təsir edən iqtisadi inkişafın müxtəlif mərhələlərinə uyğun vergi daxilolmalarının səviyyəsi kimi avtomatik stabilizatorlar dayanır. Bu halda vergi dərəcələri, vergitutma bazası və bu sahədə mövcud olan güzəşt və imtiyazlar sistemi kifayət qədər uzun zaman kəsiyində sabit qalır. Bu tipli avtomatik stabilizatorlara işsizliyə görə müavinətləri, sosial transfertləri, əhalinin aztəminatlı təbəqələrinə ödənilən ünvanlı sosial yardımı və digər sosial ödənişləri aid etmək olar. Onlar əhalinin gəlirləri ilə bağlı sosial-iqtisadi bərabərsizlikləri tənzimləyir. Başqa sözlə, vergi siyasətinin düzgün idarə olunması nəticəsində sosial-iqtisadi bərabərsizlikləri tənzimləmək mümkündür.

*Vergi yükü iqtisadi inkişaf səviyyəsindən, makroiqtisadi göstəricilərin dinamikasından asılı olaraq ölkələr arasında bir-birindən fərqlənir. Adətən, iqtisadi cəhətdən inkişaf etmiş, yüksək sosial təminata malik ölkələrdə vergi yükü kifayət qədər yüksək olur və onun böyük hissəsi istehlakın üzərinə düşür*

Qeyri-diskriminasiya xarakterli vergi siyasəti nəticəsində iqtisadiyyatın vergi yükü formalaşır. Vergi yükü ümumi daxili məhsulda vergilərin payını göstərir və vergi mexanizmləri vasitəsi ilə formalaşır. Vergi mexanizmləri hüquqi və ya fiziki şəxslərin gəlirlərinin hansı hissəsinin vergi şəklində büdcəyə ödənilməsini müəyyənləşdirir. Bu mexanizmlərin formalaşmasında əsas rolu vergi qanunvericiliyinin müəyyən etdiyi vergi dərəcələri oynayır. Vergi yükü iqtisadi inkişaf səviyyəsindən, makroiqtisadi göstəricilərin dinamikasından asılı olaraq, ölkələr arasında bir-birindən fərqlənir. Adətən, iqtisadi cəhətdən inkişaf etmiş, yüksək sosial təminata malik ölkələrdə vergi yükü kifayət qədər yüksək olur və onun böyük hissəsi istehlakın üzərinə düşür.

Makro səviyyədə vergi yükü iki göstərici ilə qiymətləndirilir:
- nominal vergi yükü;
- faktiki vergi yükü.

Nominal vergi yükü dedikdə, mövcud qanunvericiliyə əsasən müəyyən olunmuş vergi potensialı tam şəkildə səfərbər olunduğu halda əldə edilən daxilolmaların həmin mərhələdə mövcud olan nominal ümumi daxili məhsula nisbəti başa düşülür. Nominal vergi yükü ilə faktiki vergi yükü arasındakı fərqlər vergidən yayınma dərəcəsini göstərir. Nominal vergi yükü nə qədər yüksək olarsa, ondan yayınma ehtimalı da bir o qədər çox olur.

İqtisadi inkişafın səviyyəsindən asılı olaraq, dövlət vergi siyasətini həyata keçirərkən əhalinin gəlirlərinin yenidən paylanması, iqtisadi bərabərsizliklərin azaldılması, iqtisadiyyatın daxili və ya xarici investisiyalar hesabına inkişafının təmin edilməsi, xarici iqtisadi əlaqələrin stimullaşdırılması və s. məqsədləri əsas götürə bilər. Vergi siyasətinin dəyişməsi bilavasitə makroiqtisadi səviyyədə məcmu tələbə və məcmu təklifə təsir göstərir. Bu baxımdan, vergi siyasəti mobil xarakter daşımalı və iqtisadi aktivliyin stimullaşdırılmasında həlledici rola malik olmalıdır.

Vergi yükü dövlət xərclərinin, istehlak həcminin dəyişməsindən asılı olaraq dəyişir. Belə ki, dövlət xərcləri artdıqda orta vergi yükü artır, azaldıqda isə azalır. Bununla yanaşı, dövlət investisiyasına münasibətdə də analoji yanaşma mövcuddur.

İqtisadi inkişaf tempinin yüksəlməsi, şübhəsiz, iqtisadiyyatın vergi yükünün artırılmasını tələb edir və əksinə. İstehlakın səviyyəsinin artması halında isə əks mənzərə yaranır. İstehlak norması artdıqca orta vergi yükü azalır. Ona görə də ümumi daxili məhsulun istehlak və yığım komponentlərinin optimal nisbəti iqtisadi siyasətin əsas vəzifələrindən biri kimi diqqət mərkəzində saxlanmalıdır.

# Müasir mühitdə korrupsiya çağırışları ilə mübarizə

Bu günlərdə Avstriyanın Laksenburg şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyası tərəfindən «Müasir mühitdə korrupsiya çağırışları ilə mübarizə: özəl sektor üçün dərslər» mövzusunda seminar keçirilmişdir. Beynəlxalq Antikorrupsiya Akademiyasından Suzanna Hayden və Rusiyanın Avstryadakı fövqəladə və səlahiyyətli səfiri Sergey Nacayev seminarı açıq elan edərək, keçiriləcək tədris kurslarının əhəmiyyətindən, korrupsiyaya qarşı davamlı mübarizənin vacibliyindən, korrupsiyanın beynəlxalq problem olmasından danışmışlar. 3 gün davam edən seminarda korrupsiya ilə mübarizə yolları müzakirə edilmişdir. Müasir mühitdə korrupsiyaya baxış, korrupsiyaya qarşı milli planlar, korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericilik, dünya maliyyə cinayətlərinə baxış və böyük korrupsiya və digər məsələlər ətrafında müzakirələr həyata keçirilmişdir.

13 ölkədən 18 nümayəndənin iştirak etdiyi seminarda Azərbaycanı Vergilər Nazirliyinin Daxili təhlükəsizlik Baş İdarəsinin əməkdaşı Pərviz Həsənov təmsil etmişdir.



## Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

# Alimlik dərəcəsi və vergi öhdəliyi

### *Alimlik dərəcəsinə görə vəzifə maaşına əlavə hansı şərtlərlə verilir və əlavədən vergi tutulurmu?*

«Dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələrin həcminin müəyyən edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 may 2010-cu il tarixli 98 nömrəli qərarı ilə dövlət və bələdiyyə təhsil müəssisələrində işləyən elmi-pedaqoji kadrların vəzifə maaşlarına elmi dərəcələrə və elmi adlara görə əlavələr müəyyən edilmişdir. Qeyd edilən qərara əsasən, əlavələr aşağıdakı kimidir:

- ixtisası üzrə işləyən fəlsəfə doktorlarının (elmlər namizədlərinin) elmi dərəcəyə görə (elm sahələri göstərilməklə) vəzifə maaşlarına işlədiyi təhsil müəssisəsinin kateqoriyasından asılı olmayaraq - 30 manat;
- ixtisası üzrə işləyən elmlər doktorlarının elmi dərəcəyə görə vəzifə maaşlarına işlədiyi təhsil müəssisəsinin kateqoriyasından asılı olmayaraq - 50 manat.

Elmi dərəcəyə və elmi adlara görə müəyyən edilən əlavələr işçi tam ştat üzrə işlədikdə müəyyən olunmuş məbləğin 100%-i, yarımştat üzrə işlədikdə isə 50%-i həcmində ödənilir.

Elmi dərəcəyə və elmi adlara görə müəyyən edilən əlavələr əsas iş yerində 1,0 ştat və ya 1,0 stavka dərs yükünə, əvəzçilik üzrə əlavə iş yerlərində isə cəmi 0,5 ştat və ya 0,5 stavka dərs yükünə görə ödənilir.

«Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin aylıq vəzifə maaşları haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 yanvar 2012-ci il tarixli 20 nömrəli qərarı ilə dövlət büdcəsindən maliyyələşdirilən bir sıra təşkilatlarda bilavasitə ixtisası üzrə çalışan işçilərə qeyd edilən qərarın 1-3-cü, 6-7-ci və 9-17-ci əlavələrinə əsasən, müəyyən edilmiş vəzifə maaşlarına elmlər doktoru elmi dərəcəsi üzrə 50 manat, fəlsəfə doktoru elmi dərəcəsi üzrə 30 manat, 4-cü, 5-ci və 8-ci əlavələrinə əsasən isə müəyyən edilmiş vəzifə maaşlarına elmlər doktoru elmi dərəcəsi üzrə 38 manat, fəlsəfə doktoru elmi dərəcəsi üzrə 18 manat məbləğində əlavələrin ödənilməsi müəyyən edilmişdir.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (VM) 95-ci maddəsinə əsasən, rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləridir. Həmçinin, VM-in 97.1-ci maddəsində qeyd edilmişdir ki, rezident vergi ödəyicisinin gəliri Azərbaycan Respublikasında və onun hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir. VM-in 98.1-ci maddəsinə əsasən, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir.

Yuxarıda qeyd edildiyi kimi, elmi dərəcəyə və elmi adlara görə əlavələr elmi-pedaqoji kadrların vəzifə maaşlarına əlavə kimi müəyyən edilir. Buna əsasən, həmin məbləğdən də VM-in 101.1-ci maddəsində müəyyən edilmiş dərəcələrlə gəlir vergisi hesablanaraq dövlət büdcəsinə ödənilir. Onu da vurğulamaq zəruridir ki, həmin məbləğin gəlir vergisindən azad olunması və ya güzəştin tətbiq edilməsi ilə bağlı VM-in 102-ci maddəsində hər hansı müddəa öz əksini tapmamışdır.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya bu elektron poçt ünvanlarına göndərə bilərsiniz: **s.musayeva@taxes.gov.az**, **anar.eliyev@taxes.gov.az**

# Sahibkarların xarici bazarlara çıxış imkanları genişlənir

*Azərbaycanda biznes mühitinin sağlamlaşdırılması, sahibkarlıq subyektlərinin fəaliyyətinə münbit şəraitin yaradılması və yerli istehsalın stimullaşdırılması sahəsində həyata keçirilən ardıcıl tədbirlər respublikanın idxal-ixrac əməliyyatlarının həcminin artmasını təmin edib. İstehsal prosesində müsbət keyfiyyət göstəricilərinə nail olunması yerli məhsulların rəqabətə davamlılığını artırmaqla yanaşı, sahibkarlıq subyektlərinin potensial xarici bazarlara çıxış imkanlarını da genişləndirib.*

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu ilin yanvar-aprel aylarında respublikanın ticarət əməliyyatlarının həcmi ötən ilin eyni dövrünə nisbətən 5,72% artaraq 11 mlrd. 335 mln. 309 min ABŞ dolları təşkil edib. İxracın həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 5,36% artaraq 8 mlrd. 433 mln. 489 min manata çatıb. İxrac potensialının yüksəlməsi xarici iqtisadi fəaliyyət iştirakçılarının sayına da təsirini göstərib. Azərbaycanın 4.763 fiziki və hüquqi şəxsi dünyanın 129 ölkəsi ilə idxal-ixrac əməliyyatları həyata keçirib. Xarici iqtisadi fəaliyyət iştirakçılarının 2.125-i fiziki, 2.638-i hüquqi şəxs olub. Hüquqi şəxslərin 201-i dövlət, 2.437-i özəl sektoru təmsil edib. 2011-ci ilin eyni dövrü ilə müqayisədə xarici iqtisadi fəaliyyət iştirakçılarının sayı 14%, xarici iqtisadi fəaliyyətlə məşğul olan fiziki şəxslərin sayı 26%, hüquqi şəxslərin sayı 5,7% artıb.

İxracda xam neft, neft məhsulları, təbii qaz, kimya sənayesi məhsulları, pambıq lifi, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium, habelə meyvə-tərəvəz, bitki və heyvan mənşəli yağlar, alkoqollu və alkoqolsuz içkilər üstünlük təşkil edib. 2012-ci ilin yanvar-aprel aylarında Azərbaycanın ən çox mal və məhsul ixrac etdiyi ölkələr İtaliya (20,66%), Fransa (10,04%), İndoneziya (9,39), İsrail (8,74%), Hindistan (6,96), ABŞ (5,90%), Almaniya (5,22%), Bolqarıstan (3,39%) olub.

Qeyri-neft-qaz sənayesində ixracın artımını müsbət tendensiya kimi dəyərləndirən iqtisadçı ekspertlərin fikrincə, hökumətin son illərdə yerli məhsulların ixracının stimullaşdırılması sahəsində həyata keçirdiyi tədbirlər öz nəticəsini verir. Ölkədə istehsal sahibkarlığının inkişafına göstərilən maddi-texniki, metodiki və konsultativ dəstək nəticə etibarilə rəqabətə davamlı məhsul istehsalında əsaslı dönüşə imkan yaradır. İnfrastrukturun müasirləşdirilməsi, iş adamlarına istehsal yönümlü müəssisələrin açılması üçün güzəştli kreditlərin verilməsi, investisiyaların cəlb edilməsinə mane olan bürokratik amillərin aradan qaldırılması, o cümlədən elektron xidmətlərin həcminin genişləndirilməsi tədbirləri bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Son illər respublika regionlarında müasir tələblərə cavab verən və yüksək texnologiyalarla təchiz olunan yeni sənaye və emal müəssisələrinin istifadəyə verilməsi dünya bazarlarına rəqabətə davamlı məhsulların çıxarılmasına, bütövlükdə ixracın şaxələndirilməsinə imkan yaradıb. 2012-ci ilin yanvar-aprel aylarında özəl sektorun xətti ilə ölkədən 380 milyon dollara yaxın məhsulun ixrac edilməsi buna əyani sübutdur.

## *2012-ci ilin yanvar-aprel aylarında ölkədən ixrac olunan malların həcmi və çeşidi artıb*

Sahibkarlıq subyektlərinin xarici bazarlara çıxış imkanlarının genişləndirilməsinə hökumət səviyyəsində də ciddi dəstək verilir. Bu məqsədlə yaradılmış İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) ölkə sahibkarlarının ixrac potensialının artırılmasında, investisiya imkanlarının genişləndirilməsində, potensial tərəfdaşların tapılmasında və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsində sahibkarlara dəstək verir. Sahibkarların işgüzar əlaqələrinin inkişafı məqsədilə həm ölkə daxilində, həm də xaricdə müxtəlif biznes-forumlar, sərgilər, seminar və konfranslar keçirilir. Bu cür tədbirlər yerli iş adamlarının tanıdılması, məhsulların xarici bazarlara çıxarılması, işgüzar müqavilələrin imzalanması, xarici işgüzar əlaqələrin inkişafı baxımından əhəmiyyətlidir.

Ekspertlər hesab edirlər ki, Nazirlər Kabinetinin 2011-ci il 8 fevral tarixli qərarı ilə təsdiq olunmuş «2011-2013-cü illər üçün qeyri-neft məhsullarının ixracının stimullaşdırılmasına dair Tədbirlər Planı» ixracın həcminin genişlənməsinə müsbət təsir göstərəcək. Tədbirlər Planında müəssisələrdə istehsal prosesinin qabaqcıl texnologiyalar əsasında təşkili məqsədi ilə sahibkarlıq subyektlərinin dəstəklənməsi; xarici ticarət fəaliyyəti sahəsində daha əlverişli şəraitin təmin edilməsi məqsədi ilə «Xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsi haqqında» Azərbaycan Respublikasının qanun layihəsinin hazırlanması; ixrac prosedurlarının sadələşdirilməsi məqsədi ilə müvafiq normativ hüquqi aktlara əlavə və dəyişikliklərin edilməsi; ixrac məqsədli məhsulların istehsalının kreditləşdirilməsi və maliyyələşdirilməsi üzrə təkliflərin hazırlanması; ölkədən ixrac olunan xammal və yarımfabrikatların hazır məhsuladək istehsalının çatdırılmasının və ixracının stimullaşdırılması; sənaye zonalarının (sənaye klasterlərinin) və azad zonaların (sərhədyanı ticarət zonaları, azad liman zonaları və s.) yaradılması; ixracatçıların iştirakının təmin edilməsi və ixrac üçün perspektivli sayılan ölkələrdə müvafiq sərgilərin, forumların təşkili və digər təşviqat tədbirlərinin həyata keçirilməsi; potensial ixrac bazarı ölkələrində Azərbaycan ticarət evlərinin yaradılması və digər tədbirlər nəzərdə tutulur.

AZPROMO və Almaniyanın İqtisadi Əməkdaşlıq və İnkişaf üzrə Federal Nazirliyinin memorandumuna əsasən, 2012-ci ilin iyun ayından yerli iş adamları üçün «İxracatçılar üçün təlim proqramı»na başlanılacaq. Cari ilin sonunadək davam edəcək proqramın məqsədi yerli sahibkarların ixrac prosedurları, xarici bazarlar və ixrac imkanları barədə məlumatlandırılmasıdır.

**Samir MUSTAFAYEV**

# E-xidmətlərin spektri genişlənir




Bildiyimiz kimi, ölkə başçısı 23 may 2011-ci il tarixdə «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərman imzalamışdır. Fərmanda Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)», eləcə də informasiya və kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı qəbul edilən digər normativ hüquqi aktlar əsasında dövlət orqanlarının əhaliyə konkret sahələr üzrə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsi qaydalarının və xidmət növlərinin müəyyən edilməsi tapşırılmışdır. Nazirlər Kabinetinin «Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları» və «Elektron xidmət növlərinin siyahısı»nın təsdiq edilməsi haqqında qərarına əsasən isə müxtəlif dövlət orqanlarının elektron xidmətlərinin vahid reyestri yaradılmışdır. Elektron xidmətlər reyestrinin formalaşması Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə həvalə edilmişdir.

Elektron Xidmətlər Reyestrinə 43 dövlət qurumu qoşulub və həmin qurumlar Nazirlər Kabinetinin müvafiq qərarında nəzərdə tutulan elektron xidmətləri həyata keçirirlər.

Elektron xidmətlər sahəsində dövlət qurumları arasında ön sırada qərarlaşan Vergilər Nazirliyi Nazirlər Kabinetinin müəyyənləşdirdiyi 19 elektron xidmət üzrə fəaliyyət göstərir. E-bəyannamə, e-vergi hesab-fakturası, vahid depozit hesabı vasitəsilə ƏDV üzrə elektron ödənişlərin və əvəzləşmələrin aparılması, fərdi sahibkarların e-qeydiyyatı, ƏDV məqsədləri üçün e-qeydiyyat, bank idarələrində hesabların açılması və digər xidmətlər elektron formada həyata keçirilərək, Elektron Xidmətlər Reyestrinə daxil edilmişdir. Eyni zamanda, nazirlik tərəfindən həyata keçirilən vergi ödəyicilərinin müraciətlərinin SMS vasitəsilə cavablandırılması, bəyannamələrin vergi orqanları tərəfindən hazırlanması və təsdiq üçün vergi ödəyicilərinə göndərilməsi xidməti hələ ki, Elektron Xidmətlər Reyestrinə daxil olunmamışdır.

Qəzetimizin növbəti saylarında Elektron Xidmətlər Reyestrinə daxil olan bu xidmətlər barədə məlumat verəcəyik. Bu nömrəmizdə isə Vergilər Nazirliyi tərəfindən internet üzərindən vergi ödəyicilərinə bank idarələrində hesabların açılması üçün elektron formada şəhadətnamə-dublikatların verilməsi prosesinə diqqət yönəldəcəyik. Bu xidmət vergi ödəyicilərinə bank idarələrində hesabların açılması üçün elektron formada şəhadətnamə-dublikatların verilməsini əhatə edir. Sonra vergi ödəyicisinə bank idarəsində hesab açmaq haqqında ərizəsinin qəbul edilməsi barədə bildiriş göndərilir. Vergi ödəyicisinin ərizəsi bir neçə dəqiqə ərzində vergi orqanı tərəfindən emal edilir və hesab açmaq üçün şəhadətnamə-dublikat Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sisteminin (XÖHKS) iş rejimindən asılı olaraq, ən geci 2 iş günü ərzində bank idarəsinə ötürülür. Bildirişdə vergi ödəyicisinin hansı tarixdə bank idarəsinə müraciət etməli olduğu göstərilir. Əgər hesabın açıldığı bank idarəsi elektron mübadiləyə qoşulmayıbsa, vergi ödəyicisi vergi orqanından şəhadətnamə-dublikatı kağız daşıyıcılarda götürərək bank idarələrinə təqdim etməlidir.

***Qeyd:*** *Ödənişsiz həyata keçirilən bu xidmətin istifadəçiləri vergi ödəyiciləri olan fiziki və hüquqi şəxslər, nümayəndəliklər, filial və bölmələrdir. Elektron xidmət interaktiv olduğundan istifadəçilərin Vergilər Nazirliyi tərəfindən verilmiş şifrə, parol və elektron imzaları olmalıdır. Bunlardan istifadə etməklə sistemə daxil olan istifadəçi ərizə formasını doldurmaq və təsdiq etmək imkanı əldə edir. Vergi ödəyicisinin büdcəyə vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olduğu halda, ona bank idarəsində hesab açmaq üçün şəhadətnamə-dublikatların verilməsindən imtina edilir və bu barədə istifadəçiyə məlumat verilir.*

**AYTƏN**

# NKA-ların e-qeydiyyatı davam edir

## İyun ayının 1-nə 15226 NKA elektron qaydada qeydiyyata alınmışdır

Azərbaycan Respublikası Prezidentinin «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» fərmanına əsasən, elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət strukturlarının qarşısına bir sıra vəzifələr qoyulmuş və müvafiq tapşırıqlar verilmişdir. Vergilər Nazirliyi qarşıya qoyulan vəzifələrin icrasından irəli gələrək, ölkədə sahibkarlığın inkişaf etdirilməsi, daha əlverişli biznes mühitinin formalaşdırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi istiqamətində əhaliyə göstərilən elektron vergi xidmətlərinin çeşidini artıraraq əhatə dairəsinin genişləndirilməsi sahəsində bir sıra tədbirlər və layihələr həyata keçirir. Bu istiqamətdə görülən işlər nəticəsində elektron ödəniş sisteminə keçid təmin edilmiş, fiziki və hüquqi şəxslərin elektron qeydiyyatına başlanmışdır.

Ölkədə şəffaflığın təmin edilməsi, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması istiqamətində atılan mühüm addımlardan biri nəzarət-kassa aparatlarının uçota alınması və uçotdan çıxarılmasının tam elektronlaşdırılmasıdır. Bununla əlaqədar «Vergi orqanlarında vergi ödəyicilərinin uçotunun aparılmasına dair Metodiki Göstəriş»lərə dəyişikliklər edilmişdir.

Onu da qeyd edək ki, ölkədə nağdsız hesablaşmalarla yanaşı, nağd hesablaşmalara da nəzarətin gücləndirilməsi baxımından NKA-ların qeydiyyatının elektronlaşdırılmasını vacib məqamlardan hesab etmək olar.

NKA-ların qeydiyyatının elektronlaşdırılması nəticəsində vergi ödəyicisi və ya müqavilə əsasında vəkil olunmuş STXM (Servis Texniki Xidmət Mərkəzləri) tərəfindən internet üzərindən kassa aparatının qeydiyyata alınması ilə bağlı ərizə məlumatları sistemə daxil edilir və proqram tərəfindən avtomotik şəkildə onların düzgünlüyü yoxlanılır. Sistem tərəfindən, ilk növbədə, NKA-nın quraşdırıldığı təsərrüfat subyekti üzrə vergi ödəyicisinin uçotda olub-olmaması, NKA-nın markasının müvafiq dövlət reyestrinə daxil edilib-edilməməsi, həmin NKA-nın digər obyektlərdə qeydiyyatda olub-olmaması, POS-terminal quraşdırılması məqsədəmüvafiq hesab edilən obyektlərdə POS-terminalın quraşdırılıb-quraşdırılmaması, vergi ödəyicisi hüquqi şəxs olduqda onun rəhbəri haqqında hər-hansı məlumatın olub-olmaması yoxlanılır. Bu şərtlərdən hər hansı biri düz olmazsa, bu barədə vergi ödəyicisinin ekranına müvafiq mesajlar verilir. Ərizə yoxlanılarkən uyğunsuzluq aşkar edilmədikdə NKA qeydiyyata alınır və iki gün ərzində NKA-nın qeydiyyata alınacaq ünvanda vergi əməkdaşı tərəfindən plomblanması həyata keçirilir. Bundan sonra vergi ödəyicisinin elektron qutusuna avtomatik olaraq qeydiyyat vərəqəsi göndərilir. Ərizə STXM tərəfindən təqdim edildikdə, digər sənədlərlə yanaşı, vergi ödəyicisi ilə bağlanmış müqavilə də əlavə olunur. Qeyd etmək lazımdır ki, NKA-ların ucotunun elektronlaşdırılması nəzarət-kassa aparatlarının qeydiyyatı prosedurlarını xeyli sadələşdirmişdir. Əvvəllər ödəyici ərizə ilə müraciət etdikdən sonra NKA 2 gün ərzində qeydiyyata alınır, qeydiyyat vəsiqəsinin alınması və kassa aparatının plomblanması üçün yenidən vergi orqanına gəlməli olurdu. Bundan başqa, NKA-nın plomblanması üçün 3 gün tələb olunurdu. NKA-ların qeydiyyatı sahəsində həyata keçirilən yenilik nəticəsində kassa aparatının qeydiyyatına sərf edilən vaxt 15-20 dəqiqəyə qədər azalmışdır. Bundan başqa, NKA-ların elektron qeydiyyatı zamanı vergi ödəyicisinin vergi orqanına gəlməsinə ehtiyac qalmır, qeydiyyat sənədlərinin düzgünlüyü sistem tərəfindən yoxlanılır. Bununla da NKA-ların elektron qeydiyyatı həm vergi ödəyicilərinə, həm də vergi orqanlarına vaxt və maddi resurs sərfiyyatının azaldılmasına imkan verir, həmçinin şəffaf qeydiyyat prosedurlarının aparılmasını təsbit edir.



**Arzu İBRAHİMOVA**

# Uşaqlar arasında rəsm müsabiqəsi

**Bakının Yasamal rayonundakı Hüseyn Cavid adına parkda 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Vergilər Nazirliyinin və Tofiq İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının Rəsm qalereyasının təşkilatçılığı ilə «Vergilər uşaqların gözü ilə» adlı rəsm müsabiqəsi keçirilmişdir.**



Ötən illərdən fərqli olaraq, tədbir rəsm işlərinin sərgisi ilə yanaşı, Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə uşaqlar üçün böyük bayram şənliyinin təşkil olunması ilə yadda qalmışdır.

«Vergi uşaqların gözü ilə» rəsm müsabiqəsində məktəblilər üç yaş qrupu üzrə (5-8; 9-12 və 13-17) iştirak etmişlər. Müsabiqə zamanı məktəblilər tədris prosesində vergilər barədə müəllimlərindən və valideynlərindən aldıqları bilikləri kağız üzərinə köçürmüşlər.






Tədbirdə T.İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının direktoru Bədayə Ramazanova, müsabiqənin münsiflər heyətinin sədri, Azərbaycan Rəssamlar İttifaqının baş katibi, xalq rəssamı, professor, əməkdar incəsənət xadimi Ağaəli İbrahimov, Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev, Vergilər Nazirliyi Aparatının rəhbəri Asif Cahangirov və Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədov, Təhsil Nazirliyinin şöbə müdiri Ağababa İbrahimov, Bakı Şəhər Gənclər və İdman İdarəsinin rəisi Raqif Abbasov və Yasamal Rayon İcra Hakimiyyəti başçısının



müavini Xaliq Mehbalıyev çıxış etmişlər. Qeyd olunmuşdur ki, belə müsabiqələr uşaqların dövlətçilik haqqında anlayışlarının genişlənməsinə, vergilərin ictimai həyatda oynadığı rol haqqında onlarda müəyyən təsəvvürlərin formalaşmasına imkan yaradır.

Rəsm müsabiqəsində - 8 yaş qrupu üzrə Firuzə Mahmudova 1-ci, Seyid Oqtay Həsənov 2-ci, Daşa Starikova 3-cü yerə; 9-12 yaş qrupu üzrə Məmməd Haqverdi 1-ci, Fuad Anzurov 2-ci, Məryəm Sultanova 3-cü yerə; 13-18 yaş qrupu üzrə Milana Süleymanova 1-ci, Mustafa Abdullayev 2-ci, Zümrüd İbişova 3-cü yerə layiq görülüblər. Bundan başqa, ötən müsabiqələrdə qalib olmuş 5 nəfər gənc rəssama Vergilər Nazirliyinin xatirə hədiyyələri təqdim edilib.

Bayram şənliyi T.İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayının gənc vokalçı və rəqqaslarından ibarət «Noğullar» və «Can bala» uşaq musiqi qruplarının, «Cücələrim» rəqs ansamblının, şən klounların və sehrbazların çıxışları ilə davam edib. Rəsm sərgisi gün ərzində H.Cavid parkında nümayiş etdirilib.

Uşaq və gənclər arasında vergi biliklərinin artırılması və bu sahədə maarifləndirmə işlərinin genişləndirilməsinin vacibliyini nəzərə alan Vergilər Nazirliyi 2003-cü ildən başlayaraq hər il «Uşaq dünyası» qalereyasında 1 İyun - Uşaqları Beynəlxalq Müdafiə Günündə rəsm və inşa müsabiqəsi keçirir. Gənc nəslin nümayəndələri arasında vergi mədəniyyətinin aşılanması, cəmiyyətdə vergilərin könüllü ödənilməsi prinsiplərinin təbliğ olunması Vergilər Nazirliyinin vergi ödəyicilərinə xidmət sahəsində gördüyü işlərin mühüm hissəsidir.

Tədbirin əsas məqsədi gələcəyin vergi ödəyiciləri olan gənclərə vergi haqqında bilik və anlayışların uşaqların başa düşə biləcəyi formada çatdırılmasından ibarətdir. Hər il bu müsabiqələrdə iştirak etmiş rəsm əsərləri nəfis albom şəklində nəşr olunur və Vergilər Nazirliyinin qatıldığı sərgi və tədbirlərdə nümayiş etdirilir.

Müsabiqənin başlandığı ötən 10 il ərzində sərgidə umumilikdə 2500-ə yaxın rəsm əsəri nümayiş etdirilib, illər ötdükcə sərgiyə təqdim olunan rəsmlər də xeyli təkmilləşib, mövzu çalarları zənginləşib. Builki müsabiqə 2012-ci ilin aprel ayından start götürüb, 250-dən çox rəsm nümunəsi xalq rəssamı Ağaəli İbrahimovun rəhbərlik etdiyi 6 nəfərdən ibarət münsiflər heyəti tərəfindən dəyərləndirilərək qaliblər müəyyən olunub.





Mehdi Babayev

«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

## Baxış bucağı

## Auditor xidmətlərinin dəyərinin ödənilməsi

***«Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununun 16-cı maddəsinə əsasən, auditor xidməti bir tərəfdən sərbəst auditor və ya auditor təşkilatı, digər tərəfdən isə sifarişçi arasında bağlanmış və yoxlamanın məzmununu, aparılması müddətlərini, məsləhət xidmətlərinin həcmini, ödəniş məbləğini və qaydasını, eləcə də tərəflərin məsuliyyətini nəzərdə tutan müqavilə əsasında həyata keçirilir. Deməli, auditor xidməti pulu xidmətlər növünə aiddir.***

Auditor xidmətləri bazarında qiymətlərlə razılaşmayan təsərrüfat subyektləri az deyildir. Bəziləri isə auditə əhəmiyyət verməyərək «düşündükləri» kimi, artıq xərcə getmək istəmirlər. Auditorların da fərqli qiymətlər təklif etməsi audit bazarında müxtəlif yanaşmaların olduğunu deməyə əsas verir. Ona görə də sifarişçilərdə auditor xidmətlərinin qiymətləri barədə obyektiv təsəvvürlər yaranmaqda çətinliklər vardır. Auditor xidməti zehni-intellektual əməyə əsaslanır və auditorun bilik səviyyəsi ən önəmli məsələdir. Auditor daha çox danışır, düşünür, sual verir, suallara cavab verir, təkliflər irəli sürür, planlaşdırır, araşdırır, çıxış yolları axtarır, qiymətləndirir və bütün etdiklərinə görə məsuliyyət daşıyır. Bütün bunları etməyə qadir yüksək biliyin əldə olunması isə böyük sərmayələr tələb edir. Lakin öz biliyini lazımınca təqdim etməyən auditor bazarda sifarişçi tapmaqda çətinlik çəkəcəkdir. Əslində, auditor mütləq peşəkar olmalıdır. Peşəkarlığın da minimum səviyyəsi olmalıdır. Həmin minimum səviyyədən aşağı bacarıqları olan auditorlar audit bazarında rəqabətə tab gətirməyəcək, amma bazarda qalarlarsa, qiymətlərdə obyektivliyi pozacaqlar.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2005-ci il 23 dekabr tarixli 159/5 saylı qərarı ilə «Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədləri» təsdiq edilmişdir. Qərara əsasən, təsərrüfat subyektlərində maliyyə-təsərrüfat əməliyyatlarının qanunvericiliyə uyğunluğunun yoxlanılması məqsədilə təsərrüfat subyektlərinin maliyyə (mühasibat) və vergi hesabatlarının auditi, əmlakın qiymətləndirilməsinin düzgünlüyünün təsdiqi, qiymətli kağızların emissiyası üçün rəylərin verilməsi, il ərzində müəssisələrə və təşkilatlara mühasibat xidmətlərinin göstərilməsi, mühasibat və vergi uçotu, vergiqoyma üzrə ayrı-ayrı məsələlər üçün məsləhət xidmətlərinin göstərilməsi, nizamnamə fondunun formalaşdırılmasının auditi, bələdiyyələrin auditi, qeyri-hökumət təşkilatlarının auditi və digər audit xidmətləri üzrə minimum qiymətlər təsdiq olunmuşdur.

Qərarda göstərilən minimum hədlərdən yuxarı qiymətlərin tətbiqini auditorlar müstəqil surətdə sifarişçi ilə razılaşdırmaqla həyata keçirir. Qərarda göstərilən xidmətlər tövsiyə xarakteri daşısa da, həmin qiymətlərdən aşağı qiymətə audit xidməti göstərən sərbəst auditorlar və auditor təşkilatları barədə belə bir fikir formalaşır ki, onlar xidmət bazarında haqsız rəqabətə və korrupsiyaya şərait yaradan hallara yol verirlər, göstərilən xidmət keyfiyyətli ola bilməz və xidmətin dəyəri obyektiv fikir formalaşdırmır.

Eyni həcmli audit işinə ayrı-ayrı auditorlar tərəfindən müxtəlif qiymətlər təklif oluna bilər. Bu halda, sifarişçi təşkilat seçim etməkdə çətinlik çəkir. Belə düşünmək olar ki, qiyməti yuxarı təklif edən auditor daha biliklidir və bunun üçün kifayət qədər zəhmət çəkib, onun verdiyi hesabat (rəy) daha obyektiv ola bilər, auditor xidməti daha keyfiyyətlidir, onu audit bazarında daha önəmli auditor kimi tanıdıqlarına görə verdiyi rəyə inam daha çoxdur. Qiyməti aşağı təklif edən auditor isə kifayət qədər biliyə malik olmadığına görə, sifarişçi ilə dərhal razılaşır, apardığı audit keyfiyyətli olmur, verdiyi rəy obyektivliyi tam təmin etmir, o, audit bazarında o qədər də tanınmır.

Qərarda maliyyə hesabatlarının auditinin ən minimum həddi, yəni illik dövriyyəsi 100 min manatadək olan təsərrüfat subyektləri üçün 1000 manat müəyyənləşdirilib. Bu da dövriyyənin 1%-ni təşkil edir. Dövriyyəsi 40 min manat və işçi sayı 2 nəfər olan müəssisə ilə dövriyyəsi 90 min manat və işçi sayı 10 nəfər olan müəssisəyə eyni minimum həddin tətbiq olunması ədalətli görünməsə də, auditorlar sifarişçilərlə müqavilələrin bağlanmasında düzgün qiymətlərin tətbiq edilməsi üçün mühüm amilləri nəzərə almalıdırlar.

Məcburi auditdən yayınmağa meyilli olan məhdud məsuliyyətli cəmiyyətlərin böyük hissəsinin kiçik sahibkarlıq subyektləri olduğunu və dövriyyələrinin təxminən 100 - 150 min manatdan çox olmadığını nəzərə alsaq, ilkin mərhələlərdə onların auditdən keçmələri üçün minimum 1000-1500 manat tələb olunur. Auditdən keçmədiyi halda isə qanunvericiliyə uyğun olaraq, cərimələnməsi iki dəfə baha başa gələcəkdir, həmçinin onun haqqında mənfi rəy formalaşması istisna olunmur.

## Aksiz siyasətlərinin uyğunlaşdırılması...

Belçika Krallığının paytaxtı Brüssel şəhərində Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı çoxtərəfli formatının «İqtisadi inteqrasiya və Aİ siyasətlərinə uyğunlaşma» məsələləri üzrə 2-ci platforması çərçivəsində «Aksiz siyasətlərinin uyğunlaşdırılması» mövzusunda seminar keçirilmişdir.

Seminarda avropalı ekspertlər aksizlər sahəsində vergi siyasəti, vergi harmonizasiyası və uyğunlaşdırma tədbirləri barədə xüsusi təqdimatlarla çıxış etmişlər. Bildirilmişdir ki, Avropa dövlətlərinin vergi sistemlərinin harmonizasiyası prosesinin əsası 1951-ci ildə Avropa Kömür və Polad Birliyi (ECSU) yaranan zaman qoyulmuşdur. ECSU-nun yaradılması haqqında saziş əsasən, iştirakçı dövlətlərin sərhədlərində qara metallurgiya və daş kömür sənayesi məhsullarına gömrük rüsumları ləğv edilmiş, üçüncü dövlətlərə münasibətdə vahid gömrük tarifi tətbiq edilməyə başlamışdır.

Aksizlər sahəsində uyğunlaşdırma vahid bazarda ədalətliliyin təmin olunması və üzv olmayan dövlətlərdən qaçaqmalçılıq hallarının qarşısının alınmasına xidmət edir.

Seminarda Aİ-yə üzv olmayan dövlətlərin nümayəndələri də aksiz qanunvericiliyi barədə təqdimatlarla çıxış edərək, aksizlərin dərəcələri, strukturu, azadolmalar və digər vergitutma elementləri barədə ətraflı məlumat vermişlər. Seminarda ölkəmizi Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin əməkdaşı Vüsal Şıxəliyev təmsil etmişdir.

# Qeyri-neft sektorunda səmərəli investisiya layihələri

Qeyri-neft-qaz sektoruna investisiyaların cəlb olunması Azərbaycanın iqtisadi siyasətinin başlıca hədəflərindən biridir. Bu məqsədlə investisiya mühitinin yaxşılaşdırılması, daxili və xarici sərmayələrə dövlət təminatının gücləndirilməsi sahəsində həyata keçirilən tədbirlər səmərəli nəticələr verir. 2011-ci ildə ölkə iqtisadiyyatına 20 milyard dollar sərmayənin qoyulması da investisiya mühitinin cəlbediciliyinin artdığını göstərir.

Təsadüfi deyil ki, «Doing Business-2012» hesabatında Azərbaycan dünya ölkələri arasında «biznesə başlamaq» göstəricisi üzrə 18-ci, «investorun müdafiəsi» göstəricisi üzrə 24-cü, «müqavilələrin təmin edilməsi» göstəricisi üzrə 25-ci yerə layiq görülüb.

Yerli və xarici sərmayələrə dövlət təminatının gücləndirilməsi, habelə biznes strukturlarının müştərək layihələrə marağının artırılması məqsədilə yaradılmış Azərbaycan İnvestisiya Şirkətinin (AİŞ) bu istiqamətdəki fəaliyyəti də praktik nəticələr verir. Şirkətdən aldığımız məlumata görə, 2011-ci ildə aktivləri 4,5 milyon manat artaraq 174,8 milyon manat təşkil edən şirkət fəaliyyət göstərdiyi 5 ildə 14,5 milyon manat mənfəət əldə edib. AİŞ dövlət investisiya fondu olaraq Azərbaycan iqtisadiyyatına sərmayə yatırmaq istəyən yerli və əcnəbi iş adamlarına investisiya ortaqlığı təklif edir. Qeyri-neft-qaz sektorunda mövcud imkanlardan səmərəli şəkildə yararlanmaq üçün şirkət potensial investisiya partnyorlarını birgə investisiya fondları yaratmağa dəvət edir. Bu məqsədlə hələ 2008-ci ildə bir sıra beynəlxalq institusional investorlar ilə birgə Xəzər Beynəlxalq İnvestisiya Şirkəti (XBİŞ) yaradılıb. AİŞ-in 24,1% paya malik olduğu şirkətin digər səhmdarları arasında İslam İnkişaf Bankı, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası və Orta Şərq dövlətlərindən digər nüfuzlu investorlar iştirak edirlər.

2011-ci ildə şirkətin həyata keçirdiyi investisiya qoyuluşları sayəsində paytaxtda və regionlarda bir sıra yeni obyektlər, müəssisələr işə salınıb, yeni iş yerlərinin



açılması təmin olunub. Şirkət 3,3 milyon manat investisiya yatıraraq yüksək keyfiyyətli toxum istehsalı müəssisəsi olan «Azərtoxum» MMC-də 17,5% pay əldə edib. «R1» və «R2» reproduksiyalı toxum sortlarının yaradılması üçün müasir texnologiya və avadanlıqlarla təchiz edilmiş müəssisə, eyni zamanda, taxılın təmizlənməsi və toxumların hazırlanması məqsədilə üçüncü tərəflərə xidmətlər göstərir. Müəssisənin fəaliyyətə başlaması nəticəsində 83 nəfər işlə təmin olunub.

AİŞ tərəfindən 1,3 milyon investisiya qoyulan «N.A.A Aqrotara» MMC isə hazırda meyvə qurudulması və emalı müəssisəsi kimi fəaliyyət göstərir. Layihə çərçivəsində 150 daimi, 60 mövsümi iş yeri açılıb. Bundan başqa, şirkətin investisiya ortağı olduğu «Milk-Pro» MMC-nin Hövsan qəsəbəsində yüksək keyfiyyətli məhsul istehsal edən yeni süd zavodu 2012-ci ilin yanvarından tam gücü ilə işə salınıb. Daxili bazarda süd və süd məhsullarına olan ehtiyacın ödənilməsində əhəmiyyətli olan layihə çərçivəsində 160 nəfər yeni iş yeri ilə təmin olunub.

Səhmlərinin 10%-i AİŞ-ə məxsus «Qaradağ Sement» ASC-nin yenidən qurulması layihəsi üzrə quru istehsal texnologiyasına əsaslanan yeni sobanın tikintisi işləri 2011-ci ilin dekabr ayında başa çatdırılıb və zavodda ilk dəfə klinker istehsal edilib. Sobanın 2012-ci ildə tam gücü ilə istismara verilməsi nəzərdə tutulur. Layihənin icrası nəticəsində sement və klinker istehsalı 50% artacaq.

AİŞ-lə «Azərsun Holding»in birgə layihəsi olan «Səngəçal-Qaradağ Neft və Qaz Terminalı» QSC ötən ilin birinci rübündə layihənin başlanğıc fazasını (Start-up Phase) istismara verib. Xəzər dənizi sahilində yaradılan bu müasir infrastruktur enerji daşıyıcılarının Azərbaycan vasitəsi ilə Orta Asiyadan Avropa bazarlarına nəqlinə xidmət edir. İl ərzində 514 min ton qaz kondensatı və 500 min ton neft qəbul edib yola salmaq gücünə malik olan terminalda başlanğıc mərhələdə 70 yeni iş yeri yaradılıb.

AİŞ-in ARDNŞ və Sinqapurun «Keppel Offshore&Marine» şirkəti ilə birgə həyata keçirdiyi Bakı Gəmiqayırma Zavodunun nizamnamə kapitalına 30 milyon dollar məbləğində investisiya qoyuluşu həyata keçirilib. Zavodun 2013-cü ilin üçüncü rübündə istismara verilməsi nəzərdə tutulur. Layihə çərçivəsində 1000-ə yaxın yeni iş yeri yaradılacaq. Zavod istismara verildikdən sonra birinci mərhələdə ildə 4 ədəd 15 min ton yükgötürmə qabiliyyətinə malik tanker, 4 ədəd dəniz təchizat və ya yedək gəmisi tikmək imkanına malik olacaq. Yeni gəmilərin tikintisindən əlavə, zavodda il ərzində 80-100 gəminin təmiri də nəzərdə tutulub. Ümumilikdə 2011-ci il ərzində AİŞ tərəfindən Bakı Gəmiqayırma Zavoduna 30 milyon ABŞ dolları məbləğində investisiya qoyuluşu həyata keçirilib.

Şirkət 2012-ci ildə «Ağstafa Aqroservis», «Uşaq qidasının qablaşdırılması», «İşlənmiş akkumulyatorların təkrar emalı» və digər layihələrə investisiya qoyuluşlarını həyata keçirmək niyyətindədir. Ümumilikdə, qeyri-neft-qaz sənayesində yeni müəssisələrin işə salınması vergitutma bazasının genişlənməsinə və büdcə daxilolmalarının artmasına imkan yaradır.

**S.MUSTAFAYEV**



Qulu Soltanov,
sərbəst auditor

## Mühasibat

### Aktivin faydalı istismar müddətinin təyin olunması

7№-li MMUS üzrə Şərhlər və Tövsiyələrdə aktivin faydalı istismar müddətini müəyyənləşdirmək üçün aşağıdakıların nəzərdən keçirilməsi göstərilmişdir:

1. Müəssisə tərəfindən aktivin istifadəyə yararlı olması gözlənilən dövr. Aktivin istifadəyə yararlı olması gözlənilən dövr onun ehtimal olunan potensialına və ya istehsal gücünə istinadən müəyyən edilir.

2. Aktivin istifadə edildiyi növbələrin sayı, müəssisənin təmir və texniki xidmət planı və aktivin istismara verilmədiyi dövrdə onun qorunması və saxlanılması kimi əməliyyat amillərindən asılı olan, ehtimal edilən fiziki aşınma.

3. İstehsalda baş verən dəyişikliklər və ya təkmilləşmə nəticəsində, yaxud da bazarda aktivin istehsal etdiyi mal və ya xidmətlər üzrə tələbdəki dəyişikliklər nəticəsində baş verən köhnəlmə.

4. İcarə müqaviləsinin müddətinin bitməsi kimi, aktivlərin istifadəsi üzrə hüquqi və oxşar məhdudiyyətlər.

Məsələn, tkinti müəssisəsi 2012-ci ildə yeni betonqarışdıran avadanlıq almışdır. İstehsalçı tərəfindən avadanlığın texniki pasportunda gündəlik istehsal gücü 80 ton olmaqla 60000 tona qədər beton hazırlanmasının mümkün olduğu göstərilib. Avadanlığın istehsal gücü hazırda götürülmüş tikinti sifarişləri üzrə tikilinin vaxtında təhvil verilməsi üçün yetərlidir. Mövcud tikintilər üzrə gündə 50 ton beton qəbulu tələb olunur. Fərz edək ki, müəssisə tərəfindən avadanlığın planlı şəkildə tam təmir olunması və texniki xidmət göstərilməsi nəzərdə tutulub. Lakin 3 ildən sonra yerinə yetiriləcək yeni sifarişlər gündəlik beton istehsalının 150 tondan az olmamasını tələb edir.

Hesablayaq: avadanlıqdan mümkün istifadə müddəti istehsalçının təsdiqlədiyi göstəricilərə görə təxminən 2 il (60000 ton : 80 ton = 750 gün), müəssisənin hazırkı biznes tələbinə görə təxminən 4,7 il (60000 ton : 35 ton = 1714 gün) təyin olunur. Lakin 3 ildən sonrakı növbəti sifarişlər nəticəsində istehsal tələbatı ilə bağlı baş verən dəyişiklik həmin avadanlığın istismarına ehtiyac yaratmır. Avadanlığın 3 ildən sonra istifadəyə yararlı olacağı bəllidir, lakin 3 ildən sonra müəssisədə istifadəsi mümkün olmadığına görə satılması məqsədəmüvafiqdir. Deməli, avadanlıqdan bu müəssisə üçün faydalı istismar müddəti 2 il deyil, 4,7 il deyil, məhz 3 il ola bilər.

Əslində, «aktivin istifadəyə yararlı olması gözlənilən dövr» yalnız aktivin istismara verildiyi andan tam köhnələrək istismara yararsız hala düşəcəyi dövrə qədər olan müddət demək deyildir. Aktivin ömür müddəti çox ola bilər, lakin həmin müddət bütövlükdə müəssisə üçün aktivdən istifadə müddəti olmaya da bilər.

Eyni texniki göstəricilərə malik uzunmüddətli aktivlərə müxtəlif faydalı istismar müddətinin təyin edilməsinə dair misallara baxaq:

- Müəssisə iki eyni markalı, eyni qiymətə avtonəqliyyat vasitəsi almışdır. Avtonəqliyyat vasitəsinin biri (1-ci maşın) müəssisəyə gələn işgüzar qonaqların daşınması üçün nəzərdə tutulub, digər nəqliyyat vasitəsinin (2-ci maşın) isə müəssisənin işçilərinin hər gün iş yerinə aparılması və geri daşınması üçün istismar edilməsi nəzərdə tutulub. Belə halda işgüzar qonaqların daşınması üçün nəzərdə tutulan 1-ci maşın az-az vaxtlarda, yalnız qonaqların gəldiyi zamanlarda istifadə olunacaq və demək olar ki, az yol qət ediləcək. İşçilərin daşınması üçün nəzərdə tutulan 2-ci maşın isə hər iş günü işçilərin daşınması və bununla da daha çox istismar olunacağı qaçılmazdır. Deməli, 1-ci maşın 2-yə nisbətən daha az istismar olunduğuna görə daha az aşınmaya məruz qalacağı bəllidir və 1-ci maşının faydalı istismar müddəti digərinə nisbətən çox olmalıdır.

- Müəssisədə iki eyni avadanlığın birindən üç növbəli, digərindən isə bir növbəli iş rejimində istifadə olunur. Aydındır ki, birinci avadanlığın faydalı istifadə müddəti digərindən az olacaq.

- İki ayrı-ayrı müəssisədə eyni tipli avadanlıq istismar olunur. 1-ci müəssisədə avadanlığa müntəzəm olaraq təmir və texniki xidmət göstərilir. 2-ci müəssisədə isə təmirin səviyyəsi aşağıdır, təmir və texniki xidmət zamanı daha zəif ehtiyat hissələrdən iistifadə olunur. Aydındır ki, 1-ci müəssisədə eyni tipli avadanlığın istismar müddəti 2-cidən çox olacaq.

- Yükdaşıma xidmətləri göstərən müəssisə yeni 5 ədəd avtomobil almışdır. Avtomobillərdən ikisinin üç il istifadə etdikdən sonra satılması, qalan üç avtomobildən isə maksimum istismar olunması nəzərdə tutulmuşdur. Bütün avtomobillər fiziki baxımdan müəssisə üçün daha uzun müddətə yararlı olmasına baxmayaraq, satılmaq üçün nəzərdə tutulan 2 ədəd avtomobilin faydalı istismar müddətinin 3 ilə bərabər olduğu müəyyən edilir.

Beləliklə, müəssisə və ya təşkilata məxsus torpaq, tikili və avadanlıqların faydalı istismar müddəti həmin müəssisə və ya təşkilatın mülkiyyətçisi (təsisçisi və ya səhmdarı fiziki şəxs, təsisçisi və ya səhmdarı hüquqi şəxs, təsisçisi və ya səhmdarı olan dövlət təşkilatı) və müvafiq vəzifələr daşıyan idarəediciləri tərəfindən müstəqil olaraq, lakin standartların həqiqətən mülkiyyətçilərin xeyrinə düşünülərək təsbit olunan tələbləri çərçivəsində müəyyənləşdirilir. Xüsusi mülkiyyət növünə aid müəssisələr mülkiyyətində olan torpaq, tikili və avadanlıqların faydalı istismar müddətinin müəyyənləşdirilməsi üçün nizamnaməsində və ya daxili maliyyə nəzarət qaydalarında xüsusi qaydalar müəyyənləşdirə bilərlər. Fərdi sahibkarlar da göstərilən məsələlərdə tam müstəqildirlər.

# Azərbaycan MDB-də aparıcı sərmayədar ölkədir

Potensial iri sərmayəçi kimi mövqeyini möhkəmləndirən Azərbaycan regionda xarici ölkələrin iqtisadiyyatına yatırılan investisiyaların həcminə görə MDB-də aparıcı dövlətlərdən birinə çevrilib. Dünyanın nüfuzlu iqtisadi tədqiqat mərkəzlərinin hesabatlarında respublikamız bölgədə investisiyaların coğrafi mərkəzinə çevrilmiş ölkə kimi səciyyələndirilir. «Moody's» beynəlxalq reytinq agentliyinin bu günlərdə dərc olunmuş illik hesabatında Azərbaycan xalis kreditor mövqeyinə görə güclü ölkə kimi qiymətləndirilib. Qurum respublikamızın 43 milyard dollar həcmində xarici aktivlərə malik olmasını və iri şirkətlərin güclü maliyyə ehtiyatları hesabına xarici ölkələrin iqtisadiyyatına sərmayə qoyuluşları həyata keçirməsini təqdir etmişdir.

Bu gün respublikamız bölgə dövlətlərinin iqtisadiyyatının real sektoruna sərmayə yatıran və iri infrastruktur layihələrini maliyyələşdirən əsas investor kimi özünü təsdiq etməkdədir. Azərbaycan Türkiyə, Gürcüstan, Rumıniya, Moldova, Ukrayna, Belarus, Slovakiya və digər dövlətlərin sərmayə bazarlarında aktiv iştirak edən investor kimi mövqeyini möhkəmləndirməkdədir. Respublikamız həmin ölkələrin neft-qaz, neft-kimya, yanacaq-energetika, sənaye, emal, infrastruktur bölmələrinə irihəcmli maliyyə vəsaitləri yönəldərək iqtisadiyyatın inkişafına töhfəsini verir.

Hazırda Azərbaycanın xarici dövlətlərin iqtisadiyyatına yönəltdiyi sərmayələrin ümumi həcmi 8 milyard dollara yaxındır. Xarici sərmayə portfelində əsas yeri Türkiyə tutur. İndiyədək bu ölkəyə respublikamız tərəfindən 5 milyard dollardan çox sərmayə qoyulub və yaxın illərdə bu rəqəm 10 milyard dolları ötəcək. Azərbaycan yaxın beş ildə təkcə bir layihə üzrə - «Petkim-Holdinq»in yeni emal müəssisəsinin inşasına 5 milyard dollar investisiya qoyacaq. Respublikamız indiyədək Türkiyədə, xüsusilə də Ceyhan limanı bölgəsində iri neft emalı və yanacaq kompleksləri yaratmağa nail olub.

Xarici dövlətlərə yatırılan investisiya portfelində əsas yerlərdən birini Gürcüstan tutur. Son illər bu ölkə ilə bağlı investisiya siyasətinin miqyası daha da genişlənib. Xüsusilə də ARDNŞ və onun törəmə müəssisəsinin fəaliyyətinin artması sayəsində Gürcüstanın bütün yanacaq-kommunikasiya şəbəkələri və dənizsahili neft emalı terminalları ölkəmizin sərmayələri hesabına yaradılıb. Bu respublikanın təkcə pərakəndə neft məhsulları satışı bazarının 75%-i, eləcə də Gürcüstanın qazpaylayıcı şəbəkəsinin böyük hissəsi ölkəmizin nəzarəti altındadır. Hazırda Azərbaycanın Gürcüstan iqtisadiyyatına yatırdığı investisiyaların həcmi bir milyard dollar civarındadır.

Azərbaycanın xarici dövlətlərə sərmayə qoyuluşlarının artım dinamikası respublikamızın şirkətlərinin həmin ölkələrdə ən iri vergi ödəyicisi olmasını da şərtləndirmiş olur. Hazırda Gürcüstan və Türkiyədə ən iri vergi ödəyiciləri də məhz respublikamıza məxsus şirkətlərdir.

Azərbaycanın xarici iqtisadi siyasət platformasının əsas komponentlərindən birinə çevrilən sərmayə qoyuluşları ilə bağlı strategiyanın reallaşması tərəfdaş ölkələrin iqtisadiyyatına maliyyə rezervlərinin yönləndirilməsi ilə yanaşı, onların sosial iqtisadiyyatının proritet məsələlərindən biri olan işsizlik probleminin həllinə də müsbət təsir göstərir. Məsələn, İzmirdə «Petkim-Holdinq»in yeni emal zavodunun təməlinin qoyulması ilə Türkiyədə 10 min iş yerinin yaradılması nəzərdə tutulur. Beləliklə, Azərbaycan xarici ölkələrə sərmayə qoymaqla, həm də bu ölkələrdə iş yerlərinin yaradılması və iqtisadi fəallığın artmasına impuls vermiş olur. Bununla yanaşı, digər dövlətlərin, məsələn, Gürcüstan və Moldova vətəndaşlarının iş yerləri ilə təmin olunmasında birbaşa Azərbaycanın istifadəyə verdiyi yanacaq-enerji kompleksləri mühüm rol oynayır. Göründüyü kimi, respublikamız, xarici sərmayə proqramlarını həyata keçirməklə, bir çox dövlətlərin sosial sektorunda pozitiv proseslərin baş verməsinə səbəb olur.

Respublikamızın regionda güclü potensial sərmayədar ölkəyə çevrilməsi həm də Azərbaycanın beynəlxalq mövqelərinin güclənməsinə təkan verən əsas amillərdən biridir. Hazırda qlobal meyillərin dərinləşdiyi bir dövrdə hər bir ölkənin milli maraqlarının və mövqeyinin möhkəmlənməsinə təsir göstərən faktorlardan biri fəal investisiya siyasətidir. Bu gün Azərbaycan dünyanın ən modern və potensial investorlarından biri kimi qəbul edilməkdədir və ölkəmizin sərmayəsini istəyən xarici dövlətlərin sayı artmaqdadır. Nəhəng maliyyə resurslarına malik olan ölkəmiz iqtisadi maraqlarının təmin olunması çərçivəsində son illərdə xarici ölkələrə dəyəri milyardlarla dollar həcmində olan sərmayələr yatırır. Həmin investisiyalar Azərbaycanın iqtisadiyyatını gücləndirməklə yanaşı, onun ümumi maraqlarının təmin edilməsində əhəmiyyətli rol oynayır. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, xarici ölkələrə qoyulan investisiyalar mövqelərimizi möhkəmləndirir, regiondakı rolumuzu artırır.

Hər bir xarici sərmayə Azərbaycanın gələcəyi, sabahın etibarlı maliyyə təminatı deməkdir. Xarici dövlətlərə yatırılan sərmayələr Azərbaycan üçün böyük əhəmiyyətə malikdir və dəyəri milyard dollarlarla ölçülən investisiyalar Azərbaycanın gələcək güclü maliyyə rezervləri deməkdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, gələcəkdə bu sərmayələr bizə daha çox gəlir gətirəcəkdir.

**Elbrus CƏFƏRLİ**

## vergi təqvimi

**İYUN**

| I | II | III | IV | V | VI | VII |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | **3** |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | **10** |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | **17** |
| 18 | 19 | **20** | 21 | 22 | 23 | **24** |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | |
| | | | | | | |

Qeyd: ***Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.***

**Ödənilən vergi:**

**20 iyun** - «3», «4», «8», «10.1», «10.2» və «10.3»

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

xarici ölkələrdən vergi xəbərləri

# Köhnə avtomobillər üçün vergi artırılır



Rusiya Federasiyasının Sənaye və Ticarət Nazirliyi köhnə və ekoloji tələblərə cavab verməyən avtomobillərə qoyulan verginin artırılmasını nəzərdə tutan qanun layihəsi hazırlamış, maraqlı dövlət qurumları sənəd üçün öz düzəlişlərini təklif etmişdir. Bu qanunun qüvvəyə minəcəyi təqdirdə, Rusiyada yaşı 15-dən artıq olan maşınlar üçün nəqliyyat vergisi əmsalının üç misli tətbiq olunacaq. Başqa sözlə desək, köhnə avtomobil sahibləri üçqat artıq vergi ödəməli olacaqlar. Sənədin əsas məqsədi hüquqi şəxslərə aid avtomobil parklarına aid maşınların «cavanlaşdırılmasıdır».

# Vergi cinayətkarlığına qarşı birgə səy

Avropa Komissiyasının iştirakı ilə Ukraynanın, Belçikanın, Böyük Britaniyanın, Gürcüstanın, Estoniyanın, İsrailin, Qazaxıstanın, Latviyanın, Litvanın, Niderlandın, Almaniyanın, Polşanın nümayəndələri mayın 31-də Ukraynanın İrpen şəhərində «Maliyyə (vergi) cinayətləri ilə mübarizədə müasir strategiyanın qurulması» mövzusunda keçirilmiş beynəlxalq konfrans zamanı iqtisadi cinayətkarlığa qarşı birgə mübarizə aparmaq barədə razılaşma əldə ediblər. «Avropa Komissiyasının köməyi ilə təşkil olunan son görüşlər zamanı biz iqtisadi cinayətkarlığa qarşı öz səylərimizi birləşdirməyin zəruriliyi barədə prinsipial anlaşmaya nail olduq. Qloballaşma və kapital axını qarşısında sədlərin aradan götürüldüyü bir şəraitdə iqtisadi cinayətkarlığa qarşı mübarizədə milli orqanların lokal fəaliyyətləri təsirli ola bilməz», - Ukrayna vergi milisinin rəisi Andrey Qolovaç demişdir. Onun sözlərinə görə, indi Ukraynanın vergi milisi dünyanın 67 ölkəsində fəaliyyət göstərən həmkarları ilə uğurlu əməkdaşlıq edir: «Ukraynanın vergi xidmətinin Avropa Birliyi və MDB ölkələri arasında özünəməxsus yeri var. Əgər söhbət Avropa standartlarından gedirsə, Ukraynanın iqtisadi cinayətkarlığa qarşı mübarizə xidməti bu standartlara cavab verir».

# İtaliyada əmlak üçün əlavə vergi

Hökumət əmlak üçün yeni bələdiyyə vergisini hələ 2011-ci ilin sonunda - növbəti ilin büdcəsi müzakirə olunarkən müəyyənləşdirmişdi. Fərqli proqnozlara görə, yeni vergidən büdcəyə 10 milyard avrodan 30 milyard avroyadək vəsait daxil olacağı gözlənilir. Əsas yaşayış yeri kimi istifadə olunan əmlak üçün baza dərəcəsi vergi qoyulan dəyərin 0,4%-ə qədərini təşkil edir, əmlak sahibinə aid digər evlər və mənzillər üçünsə bu göstərici 0,76%-dir. Əsas yaşayış yeri üçün minimum verginin məbləği 200 avro, maksimum isə 400 avrodur.

İtaliya qanunvericiliyinə görə, əsas yaşayış yeri ev sahibinin və onun ailə üzvlərinin rəsmi qeydiyyatda olduqları mənzil və ya evdir. Əgər bu cür evlərin və ya mənzillərin sayı müxtəlif bələdiyyələr üzrə iki və ya üç olarsa, onlar da əsas yaşayış evi hesab edilir. Yerli hakimiyyət orqanları vergi dərəcəsini yalnız müəyyənləşdirilmiş hədlər daxilində artırıb-azalda bilər: əsas yaşayış yerləri üçün 0,2%-ə, əlavə mənzil sahələri üçünsə 0,3%-ə qədər. İyun ayının 18-dək ev sahibləri 0,4% və 0,76% baza dərəcələri üzrə hesablanmış verginin yarısını ödəməlidirlər. 2012-ci il sentyabrın 30-dək isə bələdiyyələrin rəhbərləri öz ərazilərində dəqiq vergi dərəcəsini müəyyənləşdirməli və hökumətdən təsdiq almalıdırlar. Əmlak sahibləri verginin qalan hissəsini dekabrın 17-dək ödəyəcəklər.

2012-ci il oktyabrın 1-dən İtaliyada yeni daşınmaz əmlak alarkən əlavə dəyər vergisi də artırılacaq.

# Böyük Britaniyada «vergi azadlığı günü»



Adam Smit İnstitutunun apardığı təhlilin nəticələrinə əsasən, bu il Böyük Britaniya vətəndaşları üçün «vergi azadlığı günü» may ayının 29-na düşmüşdür. Bu, həmin tarixin keçən illə müqayisədə bir gün gecikməsi deməkdir.

İnstitutun nəşr etdiyi məlumata əsasən, 2012-ci ildə Britaniyanın orta vergi ödəyicisi illik vergi öhdəliklərinin yerinə yetirilməsi üçün 149 təqvim günü işləməli olmuşdur. Bu il «vergi azadlığı günü»nün gəlişinin gecikməsini ölkədə 2011-2012-ci illərdə əməkhaqqı artımının səviyyəsinin aşağı salınması, eləcə də yanacaq üçün verginin və əlavə dəyər vergisinin məbləğinin artırılması ilə izah edirlər. Onu da qeyd edək ki, institut ölkədə yalnız il ərzində yığılmış verginin toplam məbləğini götürür, büdcə kəsirini və dövlət borclarının həcmi isə istisna olunur. Əgər bu amillər də nəzərə alınmış olsaydı, Britaniya vergi ödəyiciləri üçün «vergi azadlığı günü» iyun ayının 23-nə düşərdi.

Xatırladaq ki, «vergi azadlığı günü» iqtisadi göstəricidir, bu göstərici orta vergi ödəyicisinin müəyyən bir vaxta qədər aldığı əməkhaqqının həmin il üçün bütün vergi öhdəliklərini yerinə yetirməsinə kifayət etdiyini göstərir.

idman xəbərləri

# Möhtəşəm futbol bayramı başlayır!

İyunun 8-də Ukrayna və Polşanın birgə təşkilatçılığı ilə futbol üzrə növbəti Avropa çempionatı start götürəcək. 16 milli komandanın mübarizə aparacağı turnirin ilk günündə A qrupunda çıxış edən Polşa yığması Yunanıstanla, Rusiya isə Çexiya ilə qarşılaşacaq.

**Beləliklə, Avropa çempionatının qrup oyunlarının təqvimi:**

| *8 iyun - A qrupu* | *12 iyun - A qrupu* | *16 iyun - A qrupu* |
|---|---|---|
| Polşa - Yunanıstan | Yunanıstan - Çexiya | Yunanıstan - Rusiya |
| Rusiya - Çexiya | Polşa - Rusiya | Çexiya - Polşa |
| *9 iyun - B qrupu* | *13 iyun - B qrupu* | *17 iyun - B qrupu* |
| Hollandiya - Danimarka | Danimarka - Portuqaliya | Danimarka - Almaniya |
| Almaniya - Portuqaliya | Hollandiya - Almaniya | Portuqaliya - Hollandiya |
| *10 iyun - C qrupu* | *14 iyun - C qrupu* | *18 iyun - C qrupu* |
| İspaniya - İtaliya | İtaliya - Xorvatiya | İtaliya - İrlandiya |
| İrlandiya - Xorvatiya | İspaniya - İrlandiya | Xorvatiya - İspaniya |
| *11 iyun - D qrupu* | *15 iyun - D qrupu* | *19 iyun - D qrupu* |
| Fransa - İngiltərə | Ukrayna - Fransa | İsveç - Fransa |
| Ukrayna - İsveç | İsveç - İngiltərə | İngiltərə - Ukrayna |

*21 iyun* — 1. A1 - B2
*22 iyun* — 2. B1 - A2
*23 iyun* — 3. C1 - D2
*24 iyun* — 4. D1 - C2
*27 iyun* — 1-ci cütün qalibi - 3-cü cütün qalibi ilə
*28 iyun* — 2-ci cütün qalibi - 4-cü cütün qalibi ilə
*1 iyul* — Final

# Yunan-Roma güləşçilərimiz Bolqarıstana yola düşmüşlər

***London Yay Olimpiya Oyunlarına hazırlıq məqsədilə yunan-Roma güləşi üzrə böyüklərdən ibarət yığma komandamız Bolqarıstana yola düşmüşdür.***



Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, idmançılarımız 18 gün ərzində Belmeken şəhərində təşkil olunacaq təlim-məşq toplanışında iştirak edəcəklər. Heyətə London Yay Olimpiya Oyunlarına vəsiqə qazanmış bütün idmançılarımız daxil edilmişdir. Baş məşqçi Salih Bora, böyük məşqçi Şaban Donat, məşqçilər Mutalib Yerlikaya və Turac Hüseynlinin rəhbərliyi altında Bolqarıstanda Rövşən Bayramov, Elçin Əliyev və Eldəniz Əzizli (hər üçü 55 kq), Həsən Əliyev, Kamran Məmmədov və Sakit Cəlilov (hər üçü 60 kq), Azad Əliyev (66 kq), Emin Əhmədov, Rafiq Hüseynov və Elvin Mürsəliyev (hər üçü 74 kq), Saman Təhmasibi və Həmzət Yusubov (hər ikisi 84 kq), Şalva Qadabadze (96 kq) və Radomir Petkoviç (120 kq) hazırlıq prosesi keçəcəklər.

# Cüdoçılarımız Avropa Kubokunda 5 medal qazanıblar

Azərbaycanın cüdo üzrə komandası Leybnisdə gənclər arasında Avropa Kuboku yarışlarında bir qızıl, iki gümüş və iki bürünc medal qazanmışlar. Azərbaycan Cüdo Federasiyasından verilən xəbərə görə, 55 kq çəki dərəcəsində finalda rəqiblərin hər ikisi azərbaycanlı olmuşdur - Mehman Sadıqov Rasim Alməmmədova qalib gəlmişdir. Əbdülhaqq Rəsullu (81 kq.) gümüş medal qazanmışdır. Bu çəki dərəcəsində Məmmədəli Mehdiyev üçüncü yeri tutmuşdur. 100 kq çəki dərəcəsində isə Əlixan Həsənov fərqlənmişdir. O, bürünc mükafata layiq görülmüşdür. Yarışlarda İtaliya, Hollandiya, Polşa, Belçika, Rusiya və Sloveniya da daxil olmaqla dünyanın iyirmi səkkiz ölkəsindən 553 cüdoçu iştirak etmişdir.

# Aliyə Qarayevanın növbəti uğuru



Azərbaycan gimnastı Aliyə Qarayeva bədii gimnastika üzrə Rusiyanın Nijni Novqorod şəhərində keçirilmiş Avropa çempionatında çoxnövçülüyün finalında üçüncü yeri tutaraq bürünc medal qazanmışdır. İdmançımız Olimpiya proqramına daxil olan bu növdə 114,85 bal toplayaraq çempionatın liderləri Yevgeniya Kanayeva və Aleksandra Merkulova ilə birlikdə fəxri kürsüyə qalxmışdır. Aliyə Qarayeva artıq ikinci dəfədir ki, Avropa çempionatlarının çoxnövçülük finallarında mükafata layiq yer tutur. Onun ilk belə uğuru 2010-cu ildə Bremendə keçirilən Avropa çempionatında qeydə alınmışdır. Xatırladaq ki, Aliyə Qarayeva keçən il Fransada dünya çempionatının çoxnövçülüyündə də bürünc mükafata layiq görülmüşdü.

krossvord




**Soldan sağa:** 1.Maddi əşyalara itaət; 4.Azərbaycanda informasiya agentliyi; 6.Yunan şairi (1798-1857); 8.Tula vilayətində şəhər; 9.Finlandiyanın soprano səsli məşhur müğənnisi (1876-1944). 11.Korney Çukovskinin məşhur «Doktor Aybolit» əsərindəki itin adı; 13.İlk və yeganə alman mənşəli kosmonavtın soyadı; 14.Bolqarıstanda çay; 16.Müxtəlif slavyan dövlətlərdə qanunvericilik orqanı; 18.C.Cabbarlının pyesi; 22.Böyük Britaniyada universitet şəhəri; 23.Binaların və başqa tikililərin texniki, iqtisadi, funksional və görünüş baxımından planlaşdırılması və tikilməsi işlərini yerinə yetirən peşə sahibi; 24.Heyvan növü. **Yuxarıdan aşağı:** 2.Amerikada şəhər; 3.Yapon mifologiyasında ölülər çarı; 4.Qədim yunan mifologiyasında məşhur personaj. Afina çarı, Egey və Efranın oğlu; 5.Canavar cinsinə aid heyvan yarımnövü; 7.Ukraynada şəhər; 10.Avstriyada çay; 12.Dahi italyan bəstəkarının soyadı. «Aida» və «Otello» operalarının müəllifi; 15.Monoteist-təkallahlı səmavi din; 17.Seneqalın paytaxtı; 19.«Bir cənub şəhərində» filmində Həsən obrazını canlandıran aktyorun adı; 20.İsmayıllı rayonunda kənd; 21.Qədim Roma mifologiyasında məhəbbət allahı.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Soldan sağa:** 1.Arran; 2.Toronto; 5.Xəzər; 8.Çinar; 9.Dinar; 11.Fauna; 16.Qotaz; 18.Reqbi; 19.Martini; 20.Tulum. **Yuxarıdan aşağı:** 1.Arximed; 2.Tenor; 3.Nadir; 4.Opera; 6.Əli; 7.Vaqif; 8.Çan; 10.Roman ; 12.UAZ; 13.Animizm; 14.Kələm; 15.Oskar; 16.Qandi; 17.ASE.

Vergilər Nazirliyinin kollektivi nazirliyin mühasibatlığının böyük iqtisadçısı Sona Hüseynovaya, əzizi
**Nərimanın**
vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vergilər Nazirliyinin kollektivi BŞVD-nin Bəyannamələr idarəsinin əməkdaşı Həmid Şirinova, atası
**Elxan müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev
anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148.
VÖEN: 1300327481.
H/h 12-12258-1
Atabank ASC. Kod: 507581.
VÖEN: 9900006651.

M/h: 0137010032944
SWIFT BIK ATAZAZ-22.
**Ünvan:** AZ 1073, Bakı ş., Landau küç.16

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnir və «CBS Polygraphic Production» mətbəəsində çap olunur.
**Tiraj: 16000**

## Pol Qoqen

şedevrlər



*Pol Qoqen. «Aliskampda xiyaban» (1888).*

Sabah dünya rəssamlıq sənətinin görkəmli şəxsiyyətlərindən biri sayılan Pol Qoqenin (1848-1903) anadan olduğu gündür. Bu yaxınlarda onun haqqında sensasiyalı bir məlimat yayılmışdı: Vaşinqtonda keçirilən Beynəlxalq Sənət Sərgisində 53 yaşlı Suzan Börns adlı qadın dəyəri 80 milyon dollar olan tablonu yumruqlayıb və onu divardan qoparmağa çalışıb. Beynəlxalq Sənət Sərgisinin nümayəndələrinin yaydığı yazılı açıqlamada əsərin zərər görmədiyi bildirilib. Həmçinin, açıqlamada o da qeyd olunub ki, Qoqenin bu əsəri Nyu-Yorkdakı Metropoliten Sənət Muzeyində keçirilən «Qoqen: Əfsanə yaradıcısı» sərgisi silsiləsindən olub. Tablonun üzərində olan şəffaf plastik qoruyucu əsərin zərər görməsinin qarşısını alıb. Börns ifadəsində Qoqenin günahkar olduğunu, onun əsərlərində təsvir olunmuş çılpaqlıqların uşaqlar üçün zərərli ola biləcəyini deyib. Onu da qeyd edək ki, Pol Qoqen başıbəlalı əsəri 1891-ci ildə Taitiyə səyahəti vaxtı çəkib. Tabloda yerli qadınların portretləri əks olunub.

Postimpressionizm cərəyanının nümayəndəsi Pol Qoqen uşaqlıqdan rəsm çəkməklə məşğul olsa da, öz sənət yolunu yetkinlik yaşlarında müəyyənləşdirə bilmişdi. Onun yaradıcılığına impessionizm cərəyanının görkəmli nümayəndələrindən olan Kamil Pissaronun böyük təsiri olmuşdu. Pol Qoqen həyatı boyu çoxlu səyahətlərdə olmuş, müxtəlif ölkələrdə yaşamışdır. Böyük şəhərlərdən uzaqlaşıb «təbiətə qovuşmağa» can atan Qoqen sivilizasiyanı «xəstəlik» adlandırırdı. Bu mülahizənin təsiri ilə də ömrünün son illərini Okeaniyada - əvvəlcə Taitidə, sonra isə Markiz adalarında yaşamışdı. Burada o, kəskin sarsıntılar, yoxsul gün-güzəran keçirməsinə baxmayaraq, özünün ən gözəl əsərlərini yaratmışdır. Onun bu əsərlərində real həyat lövhələri Okeaniya xalqlarının məişəti və mifik görüşləri ilə çuğlaşır. O, iri kətan üzərində statik və rənglərin təzadı üzərində qurulmuş kompozisiyalar yaratmışdır, həmin kompozisiyalarda dərin emosional duyğularla yanaşı, dekorativ elementlər də üstünlük təşkil edir.

Qoqen bir rəssam kimi ölümündən sonra şöhrət qazanmışdır: 1906-cı ildə Parisdə sərgisi açılmış və 230-a yaxın əsəri nümayiş etdirilmişdi. Sasmerset Moemin 1919-cu ildə qələmə aldığı «Ay və quruş» əsərinin süjet xəttini XX əsr dünya rəssamlığına böyük təsir göstərmiş Pol Qoqenin həyat yolu təşkil edir.

## Dünyamızı qoruyaq

söz vaxtına çəkər

Dünən bütün dünya ətraf mühitin mühafizəsi gününü qeyd etdi. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 1972-ci ildə Stokholm şəhərində keçirilmiş iclasında ətraf mühit probleminin kəskinliyi, əhali arasında ekoloji biliklərin yayılması zərurəti, diqqətin ətraf mühitin mühafizəsi problemlərinə yönəldilməsinin vacibliyi nəzərə alınaraq, hər il 5 iyunun «Ümumdünya ətraf mühitin mühafizəsi günü» kimi qeyd olunmasına qərar verilmişdir və o vaxtdan bəri bu gün dünyanın hər yerində təntənəli şəkildə qeyd olunur. Ənənəvi olaraq hər il BMT tərəfindən Ümumdünya ətraf mühitin mühafizəsi gününün mövzusu müəyyənləşdirilir. Bu iki mövzu isə belə olmuşdur: «Yaşıl iqtisadiyyat: Sən də qoşulmusanmı?» Bu çağırış həm iqtisadi proseslərdə ətraf mühit amilinə üstün vəzifə kimi yanaşmaq, həm də hər bir insanı bu prosesə cəlb etmək məqsədi daşıyır. Bu münasibətlə BMT-nin baş katibi Pan Gi Mun dünya ictimaiyyətinə müraciət edib. O qeyd edib ki, Ümumdünya ətraf mühitin mühafizəsi günü daha davamlı dünya yaratmaq üçün dəyişikliklərə ehtiyacın olduğunu vurğulamaq imkanı verir... Onun sözlərinə görə, bu mövzu insanların ekoloji izlərini planetin hüdudları daxilində saxlamaq üçün hər kəsin öz öhdəsinə düşəni yerinə yetirməyin vacibliyini vurğulayır: «Dünya əhalisinin sayı 7 milyarddır və bu rəqəm 2050-ci ilə qədər 9 milyardı ötə bilər. Bu, hal-hazırda dünya əhalisinin yarıdan çoxunun yaşadığı və əhali sıxlığından əziyyət çəkən şəhərlərə, o cümlədən qida, su və enerjiyə artan tələbat səbəbiylə təbii ehtiyatların üzərində daha çox təzyiq olacağı deməkdir. Bu, həmçinin, daha çox insanın ləyaqətli iş axtaracağı deməkdir. Bütün dünyada hal-hazırda 1,3 milyard insan işsizlikdən, yaxud layiqli iş yerinin olmamasından əziyyət çəkir. Hesablamalara görə, növbəti on il ərzində daha yarım milyard insan əmək bazarına qoşulacaqdır».



Pan Gi Mun daha sonra bəyan edib ki, BMT özü iqlim tarazlığı fəaliyyətlərinin davamlı şəkildə idarəsi istiqamətində çalışır: «Ümumdünya ətraf mühitin mühafizəsi günündə mən hökumətləri, biznesmenləri və cəmiyyətin bütün üzvlərini istədiyimiz davamlı gələcəyə nail olmaq üçün hərtərəfli seçimlər etməyə çağırıram».

Onu da qeyd edək ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən və bazar iqtisadiyyatı yolunu seçdikdən sonra ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində ekoloji siyasət yeni vüsət almış və formalaşmağa başlamışdır. Azərbaycan Respublikasında yürüdülən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin olunmasından ibarətdir. Bunu gerçəkləşdirmək məqsədi ilə təbii ehtiyatlardan istifadə yollarının işlənib hazırlanması, iqtisadiyyatın inkişafının davamlılıq prinsipləri əsasında həyata keçirilməsi istiqamətində iş aparılır.

## Nanə

sağlam həyat tərzi



Təbiətin bizə bəxş etdiyi ecazkar nemətlərdən biri də nanədir. İndi onu toplayıb qurutmağın ən münasib vaxtıdır. Nanə sağlamlıq baxımından son dərəcə faydalı, xoş qoxulu bir bitkidir. Qədim Yunanıstan və Romada belə hesab edilirdi ki, nanə əhval-ruhiyyəni, zehni fəaliyyəti yaxşılaşdırır. Buna görə də ziyafət zallarına nanə suyu çiləyir, qonaqlara isə nanə yarpaqlarından hörülmüş çələnglər təqdim olunurdu.

Nanə sinirləri sakitləşdirir, bədənə rahatlıq verir. Zəmanəmizin xəstəliyinə - stressə qarşı təsirlidir. Spazm və ürək döyüntüsü riskini azaldır, qızdırmanı salır. Həzm sistemi və mədə üçün çox faydalıdır. Qaz çökdürücüdür. Bağırsaq qurdlarını salmağa köməyi dəyir. Qusmağın, ürək bulanmasının və ürək ağrısının qarşısını alır. Qrip, bronxit, soyuqdəymə və öskürək zamanı faydalıdır. Diş ağrısını və ağız qoxusunu aradan qaldırır. Ana südünü artırır. Nanə salat və yeməklərə gözəl qoxusu və fərqli dadıyla ayrı bir ləzzət qatmaq üçün quru və ya təzə qatıla bilər. Həzmi asanlaşdırmaq üçün yeməkdən sonra nanə çayı içilə bilər.

Nanənin başqa bir növü isə el arasında «nanə çövhər» adı ilə tanınan istiot nanəsidir (elmi adı Mentha piperita). O, təbii şəkildə bitmir, XVII əsrdə İngiltərədə yarpız (su nanəsi) və yaşıl çöl nanəsinin hibridləşməsindən alınmışdır.

Tərkibində bol mentol və efir yağları olduğuna görə, müasir təbabətdə istiot nanəsindən daha çox istifadə olunur. Onun yarpaqları sakitləşdirici, ödqovucu, antimikrob, spazm əleyhinə və ağrıkəsici xüsusiyyətlərə malikdir, dəri və selikli qişaların qan dövranını sürətləndirir, yaraların sağalmasını tezləşdirir. Həzm vəzilərinin fəaliyyətini tənzimləyir, iştahanı və həzmi yaxşılaşdırır, bağırsaq və öd sancılarını aradan qaldırır. Tərkibindəki bol mentol ağız boşluğu, mədə-bağırsaq, dəri və s. orqanların xəstəlikləri zamanı mikrob əleyhinə təsir göstərir.

Artıq çəkidən azad olmaq arzusunda olan bir neçə min qadının iştirak etdiyi təcrübə göstərib ki, nanə cövhəri iyləmək arıqlamağa kömək edir. Bu zaman qidaları ixtisara salmaq tələb olunmur. Sadəcə olaraq, ovcunuza az miqdarda nanə cövhər tökmək və gün ərzində onu qoxulamaq kifayətdir...

## İynədən qorxanlara xoş xəbər

texnologiya

Hər kəsin uşaqlıq yaddaşında nə vaxtsa iynə vurdurmaq kabusu dolaşıb: xüsusilə mütəzəm peyvəndlər zamanı. Təbabət alimlərinin əldə etdikləri son texnoloji nailiyyətlərdən biri bu kabusun aradan qaldırılması üçün şans yaradır. Amerikanın Massaçuset ştatının texnoloji institutunun bir qrup alimi tərəfindən hazırlanaraq sınaqdan keçirilmiş yeni tibbi cihaz, xüsusilə uşaqlarda iynə vurulmaq qorxusunu götürmək üçün əvəzsiz bir vasitədir. İlk baxışda şprisə oxşayan bu cihaz dərmanın öz gücü hesabına onu nazik və güclü, eyni zamanda asan idarə olunan şırnaq halında bədənə yeridə bilir. Cihazın ağzından böyük sürətlə çıxan maye şırnaq dərindən keçib, dərmanı lazım olan dərinliyə çatdırır.

Əslində, buna oxşar texnologiyanın tətbiq olunmasına əvvəllər də cəhd göstərilmişdi, lakin o vaxt güclü axın yaratmağa nail olmaq üçün sıxılmış havadan və ya digər qazdan istifadə etmək təklif olunurdu ki, bu da dəridə və hüceyrələrdə müəyyən zədələnmə riskləri yaradırdı. Təzə cihazda isə elektrik naqilinin köməyi ilə maqnit sahəsinin yaradılmasından istifadə edilir. Maqnit sahəsinin tənzimlənə bilməsi sayəsində həm dərmanların xüsusiyyətindən, həm də xəstələrin yaşından və xəstəliyindən asılı olaraq, dərman lazım olan dərinliyə yeridə bilir.



Psixoloji təsiri ilə yanaşı, bu metodun digər üstünlükləri də var. Burada ən mühüm üstünlük iynə vasitəsilə infeksiyaların ötürülməsi riskinin aradan qaldırılması, eləcə də insan orqanizmindəki hüceyrələrin zədələnməsinin qarşısının alınmasıdır.

## Fotomüsabiqə



Dayanmadan dəyişən zamanın bir anını əbədiləşdirib yaddaşlarımıza köçürən fotolar unudulmaz xatirələrin nişanəsi olmaqla bərabər, həm də böyük estetik həzz mənbəyidir.

Əziz oxucular! İndi, demək olar ki, hamının foto çəkmək, zamanın bir anını əbədi xatirəyə çevirmək imkanı var. Bəs çəkdiyiniz fotoları (əlbəttə, zəruri estetik tələblərə cavab verən işləri) başqaları ilə bölüşmək arzunuz varmı? Düşünürük ki, «Vergilər» qəzetinin fotomüsabiqəsi foto həvəskarları üçün gözəl imkan yaradır.

Müsabiqənin nəticələri ilin sonunda yekunlaşacaq və üç nəfər qalib, başqa sözlə, birinci, ikinci və üçüncü yerlərə layiq görülənlər qiymətli rəqəmsal fotoaparatla mükafatlandırılacaqlar.

***Sizi müsabiqəmizə qoşulmağa dəvət edirik.***

*Müsabiqəyə təqdim etmək istədiyiniz fotoları elektron formatda bu ünvana göndərə bilərsiniz: osmanogm@yahoo.com*

## Dahilər divana çəkilir

maraqlı

«Ədalətsizliyə düçar olmaq ədalətsizliyi törətməkdən yaxşıdır!» - insanları min illərin o başından haqqa və ədalətə səsləyən bu müdrik kəlamın sahibi antik yunan filosofu Sokratdır. Lakin bir amansız həqiqət də var ki, dahilər üçün həmişə divan qurulur, onlar tarix boyu, sözün hərfi və məcazi mənalarında, mühakimə olunurlar. Bunu «Trend» agentliyinin Rusiya kütləvi informasiya mənbələrinə istinadən yaydığı xəbər də təsdiq edir. Bu günlərdə Yunanıstanın paytaxtı Afina şəhərində Sokratın məhkəməsi keçirilib və gecikmiş xoşbəxtlikdən, antik filosof ölümündən 2500 il sonra bəraət qazanıb. Bu dəfə Sokrat, qədim dövrdə olduğu kimi, şəxsən məhkəmədə iştirak edə bilməsə də, onun yerinə doqquz vəkil və hüquq müdafiəçisi çıxış edib. Məhkəməyə Sokratın məşhur istehzası çıxardılıb, amma bu dəfə hökm başqa olub.

Qeyd edək ki, Sokratın ilk məhkəməsi eramızdan əvvəl 399-cu ildə keçirilmişdi. O vaxt dahi filosofu allahları tanımamaqda və gənclərin mənəviyyatını pozmaqda, eləcə də böyük yunan şairlərini tənqid etməkdə, «demokratiyanın düşməni» olmaqda günahlandırırdılar. Sokrat özünü vəkillərin iştirakı olmadan müstəqil müdafiə edərək onu mühakimə edənlərə istehza edir və «dövlətə göstərmiş olduğu xidmətlərə görə» ona təqaüd verilməsini tələb edirdi. Onu Afinaya qarşı sui-qəsddə günahlandıran məhkəmənin hökmünə görə, Sokrat ya ölüm cəzasını, ya da əbədi sürgünü seçməli idi. Sokrat ölümü seçir, zəhər - su baldırğanı içərək tam şüurlu vəziyyətdə bir neçə dəqiqə sonra ölür.

2500 ildən sonra qurulan məhkəmə dinləmələrini Onassis Fondu təşkil edib. Sokratı Böyük Britaniyadan, Fransadan, ABŞ-dan, İsveçrədən və Yunanıstandan on məşhur hüquqşünas mühakimə edib. Məhkəmə prosesində 866 tamaşaçı iştirak edib. Hakimlərin yarısı Sokrat dövründəki Afina qanunlarının ona bəraət qazandıra biləcəyi fikrini irəli sürüb, yarısı isə antik dövr məhkəməsinin hökmünü qüvvədə saxlamağı təklif edib. Məsələ tamaşaçıların səsverməsi ilə həll olunub. Tamaşaçılardan 584 nəfəri filosofu günahsız, 282 nəfər günahkar hesab edib. Beləliklə də Sokrat bəraət qazanıb.

Onu da qeyd edək ki, Sokratın fəlsəfəyə gətirdiyi dialektik metod fəlsəfə və ictimai fikir tarixinin ən böyük inqilablarından biri sayılır.

### Müdriklər deyib ki...



***«Var-dövlət və şan-şöhrət insana heç bir ləyaqət gətirmir».***

***Sokrat (e.ə.469 - e.ə.399)***